QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 171 (5402) 22 **sentyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# BMT-də növbəti tarix yazıldı!

*Prezident İlham Əliyev qurumun sessiyasında Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində gedən prosesləri şərh edərək, Serj Sarkisyanın yalan iddialarını alt-üst etdi*



Səh 2

**Nazirlər Kabinetində 2018-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələrinə baxılıb**



4

**Siyavuş Novruzov: "Prezident BMT tribunasından Azərbaycan reallıqlarını dünyanın diqqətinə çatdırdı"**



3

**Elçin Quliyev "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi**



3

**Bahar Muradova: "Sarkisyanın söylədikləri onun qeyri-ciddi fiqur olduğunu göstərir"**



4

**Cocuq Mərcanlıdan bəhs edən kitabın və filmin təqdimatı olub**



8

**"Prezidentin BMT sessiyasında çıxışı erməni yalanlarının ifşa edilməsi baxımından səciyyəvi oldu"**



4

5

**Bəhruz Quliyev: "Prezident İlham Əliyev Sarkisyanı tutarlı arqumentləri ilə susdurdu"**



5

**Azərbaycan Prezidenti BMT-nin ali tribunasından dünya ictimaiyyətinə mühüm mesajlar verdi**



16

**"The Jerusalem Post": "Nəyə görə Azərbaycan Amerika yəhudi lobbisi üçün zəruridir?"**



# BMT-də növbəti tarix yazıldı!

*Prezident İlham Əliyev qurumun sessiyasında Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində gedən prosesləri şərh edərək, Serj Sarkisyanın yalan iddialarını alt-üst etdi*



***Bəlli olduğu kimi, Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının binasında qurumun Baş Assambleyasının 72-ci sessiyasının açılışı olub və Prezident İlham Əliyev sessiyada çıxış edib. Artıq ölkə rəhbərimizin bu çıxışı bir sıra aparıcı beynəlxalq siyasi dairələr tərəfindən tarixi və mükəmməl çıxış olaraq qiymətləndirilməkdədir.***

Ümumiyyətlə, dövlət başçımızın BMT-nin Baş Assambleyasındakı çıxışı zamanı irəli sürdüyü fikir və tezislərdən, ilk növbədə, belə qənaətə gəlmək mümkündür ki, O, xüsusi olaraq, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində gedən proseslər üzərində daha çox dayanaraq, dünya birliyinin diqqətini, məhz bu problemə yönəltməyə müvəffəq olub.

## "Ermənistan kimi despotik, korrupsiyaya uğramış, uğursuz dövlət uzun illərdir beynəlxalq hüququ pozmağa müvəffəq olur"

Belə ki, "işğalçı Ermənistan 25 ildən çoxdur ki Azərbaycanın 20 faiz ərazisini - Dağlıq Qarabağı və digər 7 rayonunu işğal altında saxlayır"-deyə xatırladan Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymayan işğalçı Ermənistana qarşı beynəlxalq sanksiyaların qəbul edilmədiyini təəssüflə vurğulayıb və qeyd edib ki, belə bir halın mövcudluğu, bilavasitə problem ətrafındakı ikili standartların göstəricisidir. Eyni zamanda, ona da işarə vurulub ki, Ermənistanın siyasi rəhbərliyi hər vəchlə status-kvonun dəyişilməz olaraq qalmasını və danışıqlar prosesinin ləngiməsinə və qarşısının alınmasına cəhdlər göstərir. SİTAT: "Ermənistan status-kvonun dəyişməz qalması üçün əlindən gələni edir, substantiv danışıqların qarşısını alır. Ermənistan kimi despotik, korrupsiyaya uğramış, uğursuz dövlət uzun illərdir beynəlxalq hüququ pozmağa müvəffəq olur".

Burada görünən əsas faktorlardan biri də budur ki, dövlət başçımız çıxış etdiyi ali tribunadan birbaşa Ermənistanın cinayətkar rəhbərliyini ittiham etməklə Serj Sarkisyan rejimini diktator və terrorçu adlandırıb. Özəlliklə, Ermənistan rəhbərliyinin Azərbaycana qarşı yürütdüyü işğalçılıq siyasəti ilə yanaşı, öz xalqına da qarşı amansız divan tutmasına baxmayaraq, beynəlxalq aləmin susqunluğu, Ermənistanın despot quruluşuna qarşı sanksiyalar qəbul edilməməsi istər-istəməz təəccüb doğurmaqdadır. Belə olan vəziyyətdə isə, hadisələr daha ağır nəticələrə doğru inkişaf etmək ehtimallarını artırır: "Sanksiyaların tətbiq olunmaması Ermənistan diktatorluğunda belə illüziya yaradır ki, sanki öz terror siyasətini davam etdirə bilər".

## "Ermənistan hərbi təxribatı davam etdirərsə, Azərbaycan öz vətəndaşlarını qoruyacaq və təcavüzkarı yenə də cəzalandıracaq"

Prezident İlham Əliyev BMT-nin Baş Assambleyasında 20-ci əsrin sonlarında baş vermiş Xocalı qətliamı barədə də fikirlərini yürüdüb və həmin cinayətin bəşər tarixinin ən ağır cinayəti olaraq qiymətləndirildiyini vurğulayıb. Halbuki həmin qanlı cinayətin baş verməsinə rəğmən, dünya birliyi onun törədilməsində, bilavasitə iştirakçı olmuş Ermənistan prezidenti Serj Sarkisyana qarşı beynəlxalq hüquq çərçivəsinə əsaslanan iddialar irəli sürmür, eləcə də, onun rəsmən cinayətkar elan olunması tələb etmir.

"Xocalı soyqırımını törətmiş Ermənistan bu gün də dinc azərbaycanlı əhaliyə qarşı hərbi cinayətlərini davam etdirir"-deyə xatırladan dövlət başçımız bir daha BMT-nin Baş Assambleyasının tribunasından bəyan edib ki, Xocalıda azərbaycanlılara və bəşəriyyətə qarşı dəhşətli cinayət törədən hərbi kriminallardan biri Ermənistanın hazırkı prezidentidir. Eləcə də, Ermənistan milli azlıqların olmadığı, monoetnik və ksenofobiyanın dövlət siyasətinə çevrildiyi dövlətdir. Dövlət başçımız beynəlxalq birliyin Ermənistan rejiminin faşizm və terror siyasətinə son qoyulmalı olduğunu bir daha xatırladıb.

Məhz bu baxımdan, Prezident İlham Əliyev dünya birliyinin ölkəmizin ədalətli mövqeyinə qarşı susqun qalacağı, Ermənistanın işğalçılıq siyasətini yürüdəcəyini davam etdirəcəyi təqdirdə, düşmənin təxribatlarına sərt cavab veriləcəyini bəyan edib. SİTAT: "Ermənistan hərbi təxribatı davam etdirərsə, Azərbaycan öz vətəndaşlarını qoruyacaq və təcavüzkarı yenə də cəzalandıracaq".

## "Azərbaycanda bütün fundamental azadlıqlar, o cümlədən ifadə, mətbuat, yığıncaq və dini azadlıqlar tam şəkildə təmin edilir"

Prezident İlham Əliyev Ermənistanın daha acınacaqlı vəziyyətə düşməməsi üçün bir daha vurğulayıb ki, beynəlxalq aləm bu məsələni diqqətdə saxlamalıdır: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll olunmalıdır".

BMT-nin Baş Assambleyasının sessiyasında çıxış edən dövlət başçımız xüsusilə vurğulayıb ki, xaos və anarxiyanın hökm sürdüyü Ermənistandan fərqli olaraq, Azərbaycan müasir, sabit, demokratik ölkədir və demokratik inkişaf, insan hüquqlarının müdafiəsi dövlət siyasətinin əsas prioritetlərindəndir: "Azərbaycanda bütün fundamental azadlıqlar, o cümlədən ifadə, mətbuat, yığıncaq və dini azadlıqlar tam şəkildə təmin edilir. Bütün etnik qruplar və dinlərin nümayəndələrinin sülh və harmoniyada yaşadığı Azərbaycan dünyanın multikulturalizm mərkəzlərindən biridir".

Söz yox ki, bu kimi amillərin əldə edilməsi üçün inkişaf faktoru əsas olaraq götürülür. Məhz Azərbaycanın inkişaf və tərəqqi yolunu tutması xalqın dövlətlə birgə addımlamasına, hakimiyyətə dəstək göstərməsinə kifayət qədər zəmin yaratmış olur. Bu baxımdan, Prezident İlham Əliyev qeyd edib ki, iqtisadi inkişaf sahəsində böyük uğurlar əldə etmiş Azərbaycanda başlıca məqsəd vətəndaşların rifah halının daha da yaxşılaşdırılmasıdır.

## "Azərbaycanın uğurlu inkişafı göstərir ki, yalnız azad, müstəqil, ölkənin taleyi xalqın əlində olduğu halda nailiyyət əldə etmək mümkündür"

Həmçinin, ölkəmizin bir sıra beynəlxalq və regional layihələri reallaşdırması fonunda mövcud olan həqiqətlərdən biri də budur ki, Azərbaycan xalqı hakimiyyətlə vahidlik təşkil edir və atılan hər bir addıma dəstək verir. Bu baxımdan, "Azərbaycan beynəlxalq bazarlarda etibarlı neft və qaz təchizatçısı kimi tanınır və bir çox ölkənin enerji təhlükəsizliyini təmin edir"-deyə vurğulayan dövlət başçımız BMT-nin ali tribunasından bu önəmli fikirlərini ifadə edib: "Azərbaycan Avrasiyada aparıcı nəqliyyat qovşaqlarından birinə çevrilmək istiqamətində öz coğrafi mövqeyindən müdrikcəsinə istifadə edir. Azərbaycanın uğurlu inkişafı göstərir ki, yalnız azad, müstəqil, ölkənin taleyi xalqın əlində olduğu halda nailiyyət əldə etmək mümkündür". Beləliklə, Prezident İlham Əliyevin BMT-nin Baş Assambleyasının 72-ci sessiyasında vurğuladığı hər bir fikir tarixi aspektlərə və reallıqlara söykənir və beynəlxalq birlik tərəfindən də yüksək şəkildə qiymətləndirilməkdədir.

***Rövşən NURƏDDİNOĞLU***

# Siyavuş Novruzov: "Prezident BMT tribunasından Azərbaycan reallıqlarını dünyanın diqqətinə çatdırdı"



***"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına səfəri milli maraqlarımızın qorunması və ölkəmizin siyasi, iqtisadi əlaqələrinin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir". Bu sözləri Yeni Azərbaycan Partiyası (YAP) icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib.***

Onun sözlərinə görə, bu səfərin əhəmiyyətini anlamaq üçün bir neçə mühüm aspektə nəzərə salmaq lazımdır: "Əvvəla, Prezident İlham Əliyev Birləşmiş Ştatlara səfəri çərçivəsində bir sıra dövlət və hökumət başçıları, eləcə də müxtəlif şirkət rəhbərləri ilə görüşlər keçirdi və bu, ölkəmizin siyasi, iqtisadi və müxtəlif sahələri əhatə edən çoxşaxəli əlaqələrinin inkişafına xidmət edir. Bu, həm də Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmləndirilməsi baxımından böyük önəmə sahibdir. Ən əsası, Prezident İlham Əliyev BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışında çıxış edərək çox mühüm məsələlərə toxundu, Ermənistan hakimiyyətini tam ifşa edərək Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırdı".

YAP İcra katibinin müavini əlavə edib ki, Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışında çıxışı zamanı səsləndirdiyi fikirlər 3 mühüm məqamı önə çəkir: "Birincisi, dövlətimizin başçısı dünyanın ən mötəbər beynəlxalq qurumu olan BMT-nin tribunasından Dağlıq Qarabağ problemi, işğalçı Ermənistan tərəfindən xalqımıza qarşı törədilən cinayətlər, o cümlədən məhz Serj Sarkisyanın da iştirakçısı olduğu Xocalı soyqırımı barədə reallıqları sessiya iştirakçılarının və dünyanın diqqətinə çatdırdı: "Prezident İlham Əliyev qeyd etdi ki, "Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin təxminən 20 faizi işğal altındadır. Bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistan azərbaycanlılara qarşı Ermənistanda, Dağlıq Qarabağda və Azərbaycanın digər 7 rayonunda etnik təmizləmə siyasəti həyata keçirib". Əlbəttə, bu fikirlərin BMT tribunasından səsləndirilməsi Azərbaycanın milli maraqlarının qətiyyətli müdafiə olunmasının və ölkəmizin münaqişənin həlli istiqamətində aktiv diplomatiyasının təzahürüdür".

"İkinci vacib məqam ondan ibarətdir ki, işğal faktına, 1 milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinə baxmayaraq, Azərbaycanın ötən müddət ərzində uğurlu inkişafını davam etdirməsi diqqətə çatdırıldı. Prezident İlham Əliyev qeyd etdi ki, "2004-cü ildən başlayaraq Azərbaycanın iqtisadiyyatı 3 dəfədən çox artmış, ölkəmizdə 1 milyon 600 mindən artıq iş yeri açılmışdır. İşsizlik səviyyəsi dünyada ən aşağı göstəricilərdən biridir - 5 faiz. Prioritetlərimizdən biri yoxsulluğun azaldılması idi. 2004-cü ildə yoxsulluğun səviyyəsi 40 faizdən artıq idi. İndi bu, cəmi 5-6 faizdir. Nağd valyuta ehtiyatlarımız ölkənin ÜDM-nə bərabərdir. Xarici dövlət borcu ÜDM-in 20 faizindən azdır". Dövlətimizin başçısının səsləndirdiyi bu faktlar göstərir ki, müstəqil daxili və xarici siyasət həyata keçirən Azərbaycan öz inkişafını inamla və müvəffəqiyyətlə davam etdirir, eləcə də ölkəmiz milli tərəqqiyə xidmət edən çoxşaxəli islahatları dərinləşdirmək niyyətindədir. Şübhəsiz ki, əldə edilən nəticələr və səslənən fikirlər həm də onu deməyə əsası verir ki, qarşıdakı dövrdə Azərbaycan ölkəmizin inkişafına xidmət edən məqsədyönlü sosial siyasət kursunu da ardıcıl şəkildə davam etdirəcək. İndiyə qədər həyata keçirilən uğurlu sosial siyasətin nəticəsi kimi, əhalinin maddi rifah halı daha da yaxşılaşıb, çoxsaylı sosial məsələlər, eləcə də qaçqın və məcburi köçkünlərin problemləri uğurla həll olunub. Bu, Azərbaycan dövlətinin qüdrətini və iradəsini nümayiş etdirir. Çünki hazırda dünyanın üzləşdiyi qaçqın və köçkün probleminin hansı fəsadlara səbəb olduğunu görürük. Avropa 200 min qaçqını qəbul edərək onların problemlərini həll etmək iqtidarında olmadığını dünyaya nümayiş etdirdi. Azərbaycan isə həm qaçqın və məcburi köçkünlərin qayğılarının həllinə, həm də uğurlu və davamlı inkişafa nail olmağı bacarıb.",-deyə Siyavuş Novruzov əlavə edib.

Siyavuş Novruzov vurğulayıb ki, Azərbaycanın uğurlu enerji siyasəti də həm ölkəmizin inkişafına mühüm töhfələr verir, həm də Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına xidmət edir: "Prezident İlham Əliyev bəhs olunan çıxışı zamanı qeyd etdi ki, "Azərbaycan qlobal enerji bazarında mühüm rol oynayır. Beynəlxalq bazarlarda etibarlı neft və qaz təchizatçısı olan Azərbaycan dünyanın bir çox ölkələri üçün enerji təhlükəsizliyini təmin edir". Təbii ki, uğurlu enerji siyasəti Azərbaycanın tərəqqisinə, beynəlxalq mövqelərinin möhkəmlənməsinə və əməkdaşlıq əlaqələrinin genişlənməsinə xidmət edir".

YAP-ın İcra katibinin müavini qeyd edib ki, üçüncü vacib məsələ Prezident İlham Əliyevin BMT-nin strukturunun təkmilləşdirilməsi ilə bağlı verdiyi təkliflər, bu beynəlxalq təşkilatın fəaliyyəti ilə əlaqədar səsləndirdiyi fikirlərdir: "Vaxtilə Ümummilli liderimiz Heydər Əliyev ATƏT-in strukturunun təkmilləşdirilməsi ilə bağlı belə bir mühüm təklif irəli sürmüşdü ki, ATƏT-in nizamlama mexanizmi təkmilləşdirilməli, bu təşkilatın çıxardığı qərarlar deklorativ xarakter daşımamalıdır və Avropada meydana çıxan münaqişələrə ATƏT özü müdaxilə edərək onların həllinə nail olmalıdır. Əgər zamanında bununla bağlı konkret addımlar atılsaydı, bu gün nə Şərqi Avropada, nə Cənubi Qafqazda, nə də digər regionlarda bu cür problemlər olmazdı. Prezident İlham Əliyev isə BMT-nin strukturunda və bu təşkilatın qəbul etdiyi qərarların icra mexanizmində müəyyən dəyişikliklərlə bağlı təklif xarakterli fikirlər səsləndirdi. Dövlətimizin başçısı diqqətə çatdırdı ki, "Ermənistan 24 ildir ki, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur və əfsuslar ki, o, buna görə cəzalandırılmır. Bəzi hallarda BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra olunur. Bizə gəldikdə isə 24 ildir ki, qətnamələr icra olunmur. Bu, ikili standarta əsaslanan yanaşmadır. Bu yanaşma qəbuledilməzdir. Ermənistana qarşı beynəlxalq sanksiyalar qəbul edilməlidir. BMT-nin mühüm islahatlarından biri Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizminin yaradılması olmalıdır". Prezident İlham Əliyevin bu fikirləri həm ikili standartlara əsaslanan siyasətin ifşası, həm də qurum daxilində islahatların zəruriliyi ilə bağlı diqqətəlayiq bir yenilik idi. Əlbəttə, bu, çox aktual mövzudur. Çünki ayrı-ayrı regionlarda mövcud olan münaqişələrin həllinə ikili standartlar əsasında yanaşmaq, ədalətsiz qərarlar qəbul etmək və ya qəbul edilmiş qərarların icrasının təmin olunmaması dünyada yeni münaqişələrin - müharibə ocaqlarının yaranmasına səbəb olur. Bu münaqişələr bütün dünyanı bürüyür. Biz Avropada son zamanlar terror aktlarının baş verməsini, Yaxın Şərqdə mövcud vəziyyətin nəticəsində ortaya çıxan miqrasiya kimi problemlərdən Avropa ölkələrinin də əziyyət çəkməsinin şahidi oluruq. Yəni bu məsələlər qlobal xarakter daşıyır və bütün dünya üçün aktualdır. Məhz Prezident İlham Əliyevin bütün bunları nəzərə alaraq BMT-nin strukturunun, eləcə də təşkilatın qərarlarının icra mexanizminin təkmilləşdirilməsi ilə bağlı islahatların həyata keçirilməsinə dair mühüm təkliflərlə çıxış etməsi vacib strateji əhəmiyyətə malikdir". Siyavuş Novruzov əlavə edib ki, bütövlükdə, Prezident İlham Əliyev ölkəmizin milli maraqlarını qətiyyətlə müdafiə etdi, BMT-nin tribunasından Azərbaycan reallıqlarını, eləcə də qlobal əhəmiyyətli mühüm məsələləri dünyanın diqqətinə çatdırdı.

## Elçin Quliyev "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi



Prezident İlham Əliyev Elçin Quliyevin "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsinin təmin edilməsində xüsusi xidmətlərinə görə Elçin İsağa oğlu Quliyev "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilsin.

## Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Şəkidə vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov sentyabrın 21-də Şəki şəhərində Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonlarından olan vətəndaşları qəbul edib.



AZƏRTAC xəbər verir ki, general-leytenant Arzu Rəhimov və Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov qəbuldan əvvəl ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla anıblar. Xidmətin Şəki rayon şöbəsində keçirilən qəbulda 30-dək vətəndaşın müraciətinə baxılıb. Müraciətlər əsasən Xidmətin müvafiq şöbə və bölmələrində işə və ya həqiqi hərbi xidmətə qəbul, müddətli həqiqi hərbi xidmətə çağırılan övladlarının ailə vəziyyəti ilə əlaqədar yaşadıqları əraziyə yaxın hərbi hissələrdə xidmət keçmələrinə kömək göstərilməsi, gələcək xidmət yerinin müəyyənləşdirilməsi və digər məsələlərlə bağlı olub.

Arzu Rəhimov vətəndaşların müraciətlərini diqqətlə dinləyib, onlara qanunvericiliyin tələbləri izah edilib. Qəbul zamanı irəli sürülən məsələlərin bir qismi yerindəcə həllini tapıb. Araşdırılması tələb olunan müraciətlər nəzarətə götürülüb və müvafiq araşdırılmadan sonra cavablandırılacağı bildirilib. Vətəndaşların Xidmətin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciətləri müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

## Ekologiya və təbii sərvətlər naziri Daşkəsən rayonunda vətəndaşları qəbul edəcək



Ekologiya və təbii sərvətlər naziri Hüseyn Bağırov sentyabrın 28-də Daşkəsən, Gədəbəy, Samux, Göygöl rayonlarında və Gəncə şəhərində yaşayan vətəndaşları qəbul edəcək. Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüş saat 10:00-da Daşkəsən şəhərində yerləşən Dövlət Arxiv İdarəsində keçiriləcək. Qəbula gəlmək istəyən vətəndaşlardan qeydiyyatdan keçmək üçün info@eco.gov.az və ecologiya.nazirliyi@eco.gov.az elektron poçt ünvanları, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 168 saylı "Qaynar xətt"i, həmçinin 10 saylı ərazi Ekologiya və Təbii Sərvətlər Şöbəsi ilə əlaqə saxlamaları (ünvan: Gəncə şəhəri, H.Z.Tağıyev küçəsi 58, əlaqə telefonları: 022-253-04-48, 050-366-05-04, 050-391-97-50) xahiş olunur.

## Nazirlər Kabinetində 2018-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələrinə baxılıb



Sentyabrın 21-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadənin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələrinə, sonrakı üç il üçün icmal büdcənin göstəricilərinə, həmçinin Azərbaycan Respublikasının 2018-ci il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəricilərinə, habelə büdcə zərfinə daxil olan bir sıra normativ hüquqi sənədlərin layihələrinə baxılıb.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda maliyyə naziri Samir Şərifov və iqtisadiyyat naziri Şahin Mustafayev gündəlikdə duran məsələlərə dair məruzə ilə çıxış ediblər.

Çıxışlarda qeyd olunub ki, gələn ilin dövlət büdcəsi layihəsi son dövrlər dünyada gedən qlobal maliyyə və iqtisadi proseslər nəzərə alınmaqla, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan uğurlu iqtisadi siyasət nəticəsində əldə olunan nailiyyətlər zəminində tərtib edilib. Layihənin hazırlanmasında dövlət büdcəsinin sosialyönümlülüyü əsas götürülüb, əhalinin maddi rifahının daim yaxşılaşdırılması, dövlətin müdafiə qüdrətinin və təhlükəsizliyinin təmin edilməsi, xüsusən qeyri-neft sektorunun inkişafına dəstək verilməsi kimi mühüm amillərə diqqət yetirilib.

Büdcə layihəsi ətrafında aparılan geniş müzakirələrin yekununda əlaqədar nazirlik, komitə, idarə və təşkilatlarla birlikdə müvafiq dövlət proqramları əsasında hazırlanan "Azərbaycan Respublikasının 2018-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri" və "Azərbaycan Respublikasının 2018-ci il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri"nin bəyənilərək, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən büdcə zərfinə daxil olan sənədlər toplusunun Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması qərara alınıb.

## Bahar Muradova: "Sarkisyanın söylədikləri onun qeyri-ciddi fiqur olduğunu göstərir"



"Ermənistan prezidentinin çox zaman açıqlamaları, çıxışları qarşı tərəfə danışıqların aparılmasının mənasızlığını anlatmaq məqsədi daşıyır. Sarkisyan anlayır ki, danışıqlar prosesinin iştirakçısı olub bu danışıqların vacib və məsələnin sülh yolu ilə həllinin yeganə çıxış yolu olduğunu söylədikdən sonra bu cür bəyanatlar verməkmənasızdır. Bunu bilərəkdən etdiyi də göz önündədir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin vitse-spikeri Bahar Muradova deyib. Onun sözlərinə görə, Sarkisyan bilərəkdən danışıb, başqa cür hərəkət etməyin siyasətçiyə uğur, divident gətirmədiyini öz həyatında hiss etməkdədir: "Bəlkə də ölkə içərisində əhalinin ona qarşı neqativ münasibəti, xalq arasında dayaqlarının sarsılması Sarkisyanı BMT-nin yüksək tribunasından belə bir çıxışla öz vəziyyətinin yaxşılaşdırılmasına yönəlik mesajlar verməsinə vadar edir. Bu, Ermənistanın əvvəlki gücə malik, Dağlıq Qarabağ üçün hər şeyə getməyə hazır olduğunu və heç bir güzəştə getməyəcəyi görüntüsü yaratmasıdır. Düşmən ölkənin XİN başçısı Edvard Nalbandyanın ərazilərin nə vaxtsa Azərbaycana qaytarmalı olduqlarını vurğulamasına rəğmən ondan bir gün sonra Sarkisyanın BMT kürsüsündə bu sayaq çıxışı məhz yuxarıda söylədiyim səbəblərə bağlı olduğu açıq şəkildə göstərir".

Vitse-spiker vurğulayıb ki, siyasətçiyə o zaman ciddi münasibət olur ki, onun fikri ilə əməli üst-üstə düşsün: "Sarkisyanın söylədikləri ilə əməlinin üst-üstə düşməməsi onun getdikcə qeyri-ciddi fiqura çevrildiyini göstərir. Bunun nə ona, nə də təmsil etdiyi Ermənistan dövləti və xalqına heç bir xeyri yoxdur". BMT-nin sözügedən çıxışla bağlı hər hansı addım atmasına gəlincə B. Muradova bildirib ki, əgər BMT addım atmaq istəsəydi bunu 25 il müddətində atardı: "Niyə BMT 25 il ərzində bu cür vəziyyətlərdə öz qəbul etdiyi qərarların icra olunması üçün mexanizmlər yaratmadı?

Azərbaycan Prezidenti İlham Əliyev də BMT-də çıxışında bildirdi ki, təşkilatın fəaliyyətində əsas dəyişiklik onun öz qəbul etdiyi qərarların həyata keçirilməsi mexanizmini tapması olmalıdır. Təşkilat çərçivəsində aparılan struktur islahatlarında bu da nəzərdə tutulmalıdır. BMT-nin onsuz da öz qəbul etdiyi sənədləri dərhal icra etmək üçün o qədər də ciddi mexanizmləri yoxdur. Əgər hansısa qərarların icrasını misal gətiririksə, o zaman biz böyük dövlətlərin özünün iradəsinin, siyasi mövqeyinin burada böyük rol oynadığını xüsusi vurğulamalıyıq. Mən BMT-nin bir təşkilat olaraq böyük dövlətlərin marağından kənar addım atdığını görməmişəm".

## Musa Quliyev: "Görülən sistemli işlər nəticəsində ölkəmizin qeyri-neft sektorunda ixrac potensialı əhəmiyyətli dərəcədə artırılacaq"

"Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları yüz illər boyu müstəqil Azərbaycanın tarixində qalacaq çox uğurlu layihədir. Bu layihə 2004-cü ilin fevralından həyata keçirilir ki, artıq onun üçüncü mərhələsi reallaşdırılır". Bu fikirləri YAP Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Musa Quliyevdir.



M.Quliyev bildirib ki, bu proqramın həyata keçirilməsində məqsəd, qeyri-neft sektorunun inkişafını təmin etmək, respublikanın bütün regionlarını proporsional şəkildə inkişaf etdirmək, neft sektorundan gələn gəlirləri qeyri-neft sektorunun inkişafına yönəltmək və Azərbaycanın neftdən asılılığını aradan qaldırmaqdan ibarətdir. Eyni zamanda, rayonların və onların kəndlərinin inkişaf səviyyəsini qaldırmaq, əhalinin məskunlaşmasını və məşğulluğu təmin etmək, yerlərdə normal gəliri olan iş yerləri ilə təmin etmək də başlıca məqsədlərdən biridir.

"Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramının birinci və ikinci mərhələsi investisiya qoyuluşlarına, infrastrukturun yaradılmasına, magistral yolların çəkilməsinə, elektrik energisi sisteminin yenidən qurulmasına, qaz təminatının yaxşılaşdırılmasına, bu sahədə xüsusi layihələrin həyat keçirilməsinə yönəlmişdi. Eyni zamanda, yeni iş yerlərinin açılması, turizmin inkişafı, aqrar sektorun inkişafı da diqqət mərkəzində olub. Artıq üçüncü mərhələ isə açılmış iş yerlərinin rəqabətqabiliyyətli məhsul istehsalını qarşıya məqsəd qoyub. Məqsəd Azərbaycan brendlərinin, Azərbaycan markalı məhsulların xarici bazarlara çıxarılmasını təmin etməkdir. Artıq keyfiyyətli məhsullarımız istehsal olunur ki, onların ixracı ilə məşğuluq. Bir sıra məhsullar var ki, onları xarici bazarlara çıxarmaqla ölkəmizə yeni kapital gətirməyə çalışmalıyıq. Sevindirici haldır ki, bu istiqamətdə müsbət nəticələr əldə olunmaqdadır. Görülən sistemli işlər nəticəsində ölkəmizin qeyri-neft sektorunda ixrac potensialı əhəmiyyətli dərəcədə artırılacaq"- deyə, M.Quliyev vurğulayıb.

## "Prezidentin BMT sessiyasında çıxışı erməni yalanlarının ifşa edilməsi baxımından səciyyəvi oldu"

"Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 72-ci sessiyasının açılışında etdiyi çıxış həm Azərbaycan həqiqətlərinin nüfuzlu beynəlxalq aktorlara çatdırılması, həm də despotik erməni rejiminin yalanlarının ifşa edilməsi baxımından səciyyəvi oldu". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib. Millət vəkilinin sözlərinə görə, Dövlət başçısı sessiyada çıxışı zamanı ilk növbədə orta əsr təfəkkürü ilə yaşayan despotik və korrupsiyaya uğramış hərbi xunta rejiminin hələ də Azərbaycan torpaqlarını işğal altında saxladığını diqqətə çatdıraraq, bunun yolverilməz olduğunu bildirdi: "Prezident İlham Əliyev bu işğalda azərbaycanlılara qarşı soyqırımı törədənlərdən birinin elə Ermənistan prezidenti olduğunu söyləyərək bu vaxta qədər problemin həll edilmədiyinin səbəbi kimi dünyada mövcud olan ikili standartları göstərdi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin yerinə yetirilməməsinin anlaşılmaz olduğunu vurğulayan Prezident İlham Əliyev artıq belə məsələlərin öz həllini tapması üçün BMT-də müvafiq mexanizmlərin yaradılmasının vaxtının çatdığını bildirdi".

H.Babaoğlunun sözlərinə görə, bu təklif hazırda islahatların aparılmasının zəruri olduğu bildirilən ən nüfuzlu beynəlxalq təşkilat olan BMT-nin yenidən təşkilatlanaraq daha effektiv fəaliyyət göstərməsi baxımından olduqca aktual idi: "Çünki beynəlxalq münasibətlərin hazırki mürəkkəb mərhələsində BMT-yə



üzvü olan çoxsaylı dövlətlərin ərazi bütövlüyü pozulur, beynəlxalq hüququn tələbləri yerinə yetirilmir, BMT tərəfindən tanınmış sərhədlər siyasi xəritədən silinir. BMT isə bunların qarşısını almaq üçün müvafiq struktura malik deyil. Belə olan halda isə dünyanı xaos bürüyür, etnik separatçılıq baş alıb gedir, milli dövlətlər dağılır ki, bu da beynəlxalq münasibətlərin gələcəyi üçün yaxşı heç nə vəd etmir".

"Prezident İlham Əliyev BMT tribunasından bir daha Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyini diqqətə çatdıraraq, hazırki mərhələdə Ermənistana beynəlxalq sanksiyaların tətbiq edilməsinin vacib olduğunu bildirdi. Dövlət başçısı eyni zamanda qeyd etdi ki, İslam Əməkdaşlıq Təşkilatına üzvü olan ölkələr işğalçı Ermənistanla münasibətlərə məhdudiyyətlər qoymalıdırlar. Bu fikirlər təkcə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması baxımından deyil, həm də istər post-sovet məkanında, istərsə də Yaxın Şərqdə bənzər problemlərin həlli yollarının tapılması baxımından olduqca rasional və düzgün fikirlər idi. Əgər BMT doğrudan da öz nizamnamə tələblərinin və beynəlxalq hüququn yerinə yetirilməsini istəyirsə, mümkün islahatlar prosesində bunları nəzərə almalıdır. Prezident İlham Əliyev işğalçı Ermənistana bir daha xəbərdarlıq edərək bildirdi ki, Aprel döyüşləri təkrarlana bilər. Ona görə də beynəlxalq birlik Ermənistan rejiminin faşizm və terror siyasətinə son qoymalıdır"- deyə, deputat vurğulayıb. H.Babaoğlu qeyd edib ki, Azərbaycan Prezidenti tərəfindən yüksək tribunadan səsləndirilən cəsarətli fikirlər əslində Ermənistanla bərabər, onun işğalçılıq siyasətinə bu və ya digər səviyyədə dəstək verən ölkələrə ünvanlanmış məsaj idi: "Prezident İlham Əliyev bir daha diqqətə çatdırdı ki, Azərbaycan inkişaf edən, hüquqi demokratik dövlətdir. Ölkəmizdə ksenofobiya, etnik və dini ayrıseçkilik yoxdur. Azərbaycan çox böyük regional və beynəlxalq layihələr həyata keçirir. Bu layihələr ətrafında olduqca geniş əməkdaşlıq platforması yaranıb. Ölkəmiz beynəlxalq dialoq və tərəfdaşlıq məkanına çevrilib. Azərbaycanın beynəlxalq nüfuzu daima artır. Həyata keçirilən bu siyasət sayəsində regionumuzda sabitlik hökm sürür. Ona görə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi beynəlxalq hüquq və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll edilməlidir. Bütövlükdə Prezident İlham Əliyevin BMT Baş Assambleyasındakı çıxışı ən aktual beynəlxalq və regional problemlərin həlli ilə bağlı irəli sürülən rasional təkliflərlə yadda qalmaqla yanaşı, Azərbaycanın mühüm və nüfuzlu tədbirdə ən yaxşı təqdimatı kimi səciyyəvi oldu".

# Bəhruz Quliyev: "Prezident İlham Əliyev Sarkisyanı tutarlı arqumentləri ilə susdurdu"

***"Ermənistan tarix boyu "böyük Ermənistan" yaratmaq xülyası ilə Azərbaycana qarşı mənfur işğalçılıq siyasətini yeridib. Bu gün də eyni siyasət həmin iddialar əsasında formalaşdırılıb və Azərbaycana məxsus Dağlıq Qarabağın 20 faizi erməni işğalı altında qalmaqda davam edir". SİA-nın xəbərinə görə, bunu siyasi ekspert Bəhruz Quliyev BMT-nin Baş Assambleyasının 72-ci sessiyasını şərh edərkən deyib.***



Siyasi ekspertin fikrincə, sessiyada Serj Sarkisyanın Azərbaycan əleyhinə fikirlər səsləndirməsi heç bir məntiqə və reallığa söykənmir və onun yalanları məhz ölkə başçısı cənab İlham Əliyev tərəfindən ifşa olundu: "Biz, ilk növbədə, Prezident İlham Əliyevin Serj Sarkisyanın ağ yalanlarına qarşı verdiyi tutarlı və arqumentli cavabları ilə onu necə susdurmasının şahidi olduq. Belə ki, BMT TŞ-nin Ermənistanın işğalçılıq siyasətini sübuta yetirən və işğal olunan əraziləri qeyd-şərtsiz azad etməsini tələb edən dörd qətnaməsi mövcuddur, lakin təəssüf ki, həmin torpaqlar hələ də işğal altında qalmaqda davam edir. Əbəs yerə deyil ki, Prezident İlham Əliyev bu faktı önə sürərək, BMT TŞ-nin həmin qətnamələrinə rəğmən, Serj Sarkisyanın hərbi cinayətkar kimi bu qurumun tribunasındakı çıxışını sərt şəkildə qınadı, o cümlədən, hərbi cinayətkarın mötəbər qurumun ali tribunasında çıxış etməsini qətiyyətlə tənbeh etdi".

B.Quliyev qeyd edib ki, Prezident İlham Əliyev Serj Sarkisyanın Xocalı soyqırımının əsas iştirakçılarından biri olduğunu xatırladaraq bununla dünya birliyinə öz mühüm mesajlarını çatdırdı: "Dövlətimizin başçısı vurğulayıb ki, Serj Sarkisyan hazırda öz ölkəsində hərbi xunta rejimi yaratmaqla yanaşı, Xocalıda azərbaycanlılara qarşı törədilən qanlı əməliyyatlarda iştirak edən bir şəxsdir və təəssüf ki, bu gün dünya birliyi həmin faktların reallığına etinasız yanaşmaqla Ermənistan hakimiyyətinə qarşı sanksiyalar tətbiq etmir".

Digər bir məsələni də diqqətə çatdıran siyasi ekspert hesab edir ki, məhz Prezident İlham Əliyevin yürütdüyü qətiyyətli siyasət nəticəsində Qarabağın işğal olunması faktı bir sıra digər mühüm beynəlxalq qurumlar tərəfindən tanınıb. Belə ki, NATO, AŞ PA, Avropa Parlamenti kimi beynəlxalq qurumlar Dağlıq Qarabağın Ermənistan tərəfindən işğal olunmasını sübuta yetirən sənədlər qəbul etsələr də, beynəlxalq aləmin bu məsələdə susqunluğunu davam etdirməsi, işğal faktına ikili standartlardan yanaşması anlaşılan deyil.

B.Quliyev sözügedən məsələdə qeyri-obyektiv yanaşmanın davam edəcəyi halda, Prezident İlham Əliyevin qətiyyətli bəyanatını da xatırladaraq deyib ki, əgər Ermənistan öz işğalçılıq siyasətindən əl çəkməsə, müvafiq beynəlxalq qurumlar bu məsələdə ikili standartlarını davam etdirəcəklərsə, Azərbaycan öz hüquqlarından istifadə edərək, əzəli torpaqlarını düşməndən azad etmək məcburiyyətində qalacaq: "Bu baxımdan, ölkə başçımız BMT-nin ali tribunasından aprel hadisələrini beynəlxalq birliyin və xüsusilə erməni prezidentin diqqətinə çatdırdı ki, ümumiyyətlə, problemin tənzimlənməsi çərçivəsində atılan addımların qarşısını alan hər bir cəhd birbaşa Ermənistanın ziyanına işləyən proses kimi nəticələnə bilər".

Siyasi ekspert qeyd edib ki, dövlət başçımızın çıxışında irəli sürülən hər bir fikir Azərbaycanın dünya dövlətləri sırasındakı mühüm yerini sübuta yetirmiş oldu: "Despotizm və anarxiya rejimi ilə idarə olunan Ermənistandan fərqli olaraq, bu gün Azərbaycan bənzərsiz multikultural mərkəzə, mükəmməl tolerantlıq məkanına çevrilib. Azərbaycanın Avropanın və Şərqin birləşdiyi bir məkanda yerləşməsi tarixlərdən gələn gerçəklikdir və bu barədə cənab Prezident öz çıxışında vurğulayıb. Ölkə başçımız son iki ildə 2 mötəbər beynəlxalq idman yarışının - Avropa Oyunlarının və İslam Oyunlarının məhz Azərbaycanda keçirildiyini xatırladaraq beynəlxalq aləmə xitabən demək istədi ki, buna səbəb ölkəmizdə mövcud olan dünyəvi və demokratik quruluşun yüksək səviyyədə inkişaf etməsidir. Həmçinin, Azərbaycan hakimiyyəti xalqın maraqlarından çıxış edir, ölkəmizdə xalq-hakimiyyət birliyi, dostluq tandemi mövcuddur. Bütün bunlar isə dövlətimizin dünya birliyindəki mötəbər yerini daha da möhkəmləndirməkdədir. Ümumiyyətlə, Prezident İlham Əliyevin BMT-nin Baş Assambleyasındakı çıxışını tarixi çıxış kimi qiymətləndirmək olar. Xalqımız bu tarixi çıxışın müsbət nəticələrinin qısa zamanda şahidi olacaq". (trend)

# Naxçıvan Muxtar Respublikasında təhlükəsizlik orqanlarının yaradılmasının 25-ci ildönümü qeyd olunub

***Naxçıvan Muxtar Respublikasında təhlükəsizlik orqanlarının yaradılmasının 25-ci ildönümü qeyd olunub.***



Əvvəlcə tədbir iştirakçıları müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri düzərək Ulu Öndərin xatirəsini dərin ehtiramla yad edib, Heydər Əliyev Muzeyində dahi şəxsiyyətin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxıblar.

Sonra tədbir Dövlət Təhlükəsizliyi Xidmətinin inzibati binasında davam etdirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası təltiflərinin verilməsi haqqında" 2017-ci il 19 sentyabr tarixli Sərəncamını oxuyub. Sərəncama əsasən Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin bir qrup əməkdaşı "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" və "Rəşadətli əməyə görə" nişanları ilə təltif ediliblər.

Cəlil Rüstəmov tədbirdə çıxış edərək deyib ki, Naxçıvan Muxtar Respublikasının təhlükəsizlik orqanları 25 ildə mühüm inkişaf yolu keçib. Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinə və onun rayon şöbələrinin fəaliyyəti üçün lazımi şərait yaradılıb, müasir xidməti binalar istifadəyə verilib. Ulu öndər Heydər Əliyevin sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi 1992-ci il 20 sentyabr tarixli qərara əsasən Naxçıvan Muxtar Respublikasının Milli Təhlükəsizlik Nazirliyi yaradılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 18 dekabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin əsasında muxtar respublikanın Dövlət Təhlükəsizliyi Xidməti yaradılıb. Bu fərmandan sonra Dövlət Təhlükəsizliyi Xidmətində aparılan islahatlar müasir dövrün təhdid və çağırışları nəzərə alınmaqla xidmətin səmərəli və çevik təşkil olunmasına təkan vermişdir. Bu gün Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidməti ölkəmizin və muxtar respublikanın maraqlarına qarşı yönəlmiş təhdidlərin vaxtında aşkar edilərək qabaqlayıcı tədbirlər görülməsi, dövlətçiliyin və təhlükəsizliyin qorunması üçün fəaliyyətini gücləndirir.

Tədbirdə çıxış edən Dövlət Təhlükəsizliyi Xidmətinin rəis müavini, polkovnik Ələşrəf İbrahimov şəxsi heyəti yubiley münasibətilə təbrik edərək deyib ki, bu gün xidmətin fəaliyyətinin səmərəli təşkili üçün ardıcıl tədbirlər həyata keçirilir. Xidmət yüksək dövlət qayğısı ilə əhatə olunub. Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları göstərilən qayğıdan və yaradılan şəraitdən səmərəli istifadə edərək, bundan sonra da öz vəzifə borclarını uğurla yerinə yetirəcəklər.

Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları çıxış edərək təhlükəsizlik orqanlarının 25 ildə keçdiyi yoldan və onlara göstərilən qayğıdan danışıblar.

Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-mayor Fazil Ələkbərov yubiley münasibətilə Xidmət əməkdaşlarını təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb.

***AZƏRTAC-ın Naxçıvan Muxtar Respublikasındakı bürosu***

# Azərbaycan Prezidenti BMT-nin ali tribunasından dünya ictimaiyyətinə mühüm mesajlar verdi

***"Bu gün ölkəmizin sürətli inkişafı, həyata keçirdiyimiz regional və qlobal layihələr, ümumiyyətlə, Azərbaycan həqiqətləri dünyanın bir çox ölkələrində ali tribunalardan beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılır. Bu mənada, Azərbaycan Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının 72-ci sessiyasının açılışındakı çıxışını xüsusi olaraq vurğulamaq lazımdır. Ümumiyyətlə, ölkəmizin başçısının ABŞ-a səfəri, bu mötəbər tədbirdə iştirak və çıxış etməsi, eyni zamanda, keçirdiyi bir sıra mühüm görüşlər Azərbaycanın artan nüfuzundan xəbər verir". Bu fikirləri KİV-ə açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.***



Vüqar Rəhimzadənin sözlərinə görə, Azərbaycan Prezidentinin BMT Baş Assambleyasının 72-ci sessiyasında çıxışı zamanı Dağlıq Qarabağla bağlı səsləndirdiyi əsaslı və mühüm fikirlər dünya ictimaiyyətinə bir daha dəqiq mesaj oldu: "Cənab Prezidentimizin qeyd etdiyi kimi, Dağlıq Qarabağ Azərbaycanın əzəli və tarixi torpağıdır. Nə qədər ki, bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmayıb, Ermənistanın təcavüzü nəticəsində işğal altında olan 20 faiz torpağımız azad edilməyib Azərbaycan həm hərb, həm də informasiya məkanında öz mübarizəsini və haqlı təbliğat siyasətini davam etdirəcək. Möhtərəm Prezidentimizin bu sahədə yürütdüyü siyasət təqdirəlayiqdir və xalqımız tərəfindən dəstəklənir."

YAP Siyasi Şurasının üzvü vurğuladı ki, Azərbaycan Prezidentinin sessiyada çıxışı zamanı Xocalı faciəsi ilə bağlı toxunduğu məqamlar bir daha dünya ictimaiyyətində Ermənistanın terrorçuluq siyasəti ilə bağlı aydın fikir formalaşdırdı: "Hər kəsə məlumdur ki, ermənilər Xocalıda azərbaycanlılara qarşı böyük soyqırımı törədiblər. Bu soyqırımı artıq dünyanın bir sıra ölkələrində rəsmi şəkildə tanınıb. Möhtərəm Prezidentimiz "bəşəriyyətə qarşı bu dəhşətli cinayəti törədən hərbi kriminallardan biri Ermənistanın hazırkı prezidentidir" fikirləri isə Sarkisyanın bir daha beynəlxalq birlik qarşısında dəqiq faktlarla ifşa edilməsidir."

"İki sahil" qəzetinin baş redaktoru əlavə etdi ki, Prezident İlham Əliyev cəsarətli şəkildə BMT tribunasından dünyanın beynəlxalq təşkilatlarına çağırış edərək ikili standartlara son qoyulmasını tələb etdi: "Möhtərəm Prezidentimizin də qeyd etdiyi kimi, beynəlxalq təşkilatlar Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmasını tələb edən qətnamələr qəbul ediblər. BMT-nin Təhlükəsizlik Şurası bununla bağlı 4 qətnamə qəbul edib. Eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurasının Parlament Assambleyası və Avropa Parlamenti bununla bağlı qərar və qətnamələr qəbul ediblər. Bizim isə tələbimiz odur ki, Ermənistan bu qətnamələri icra etsin. Əgər etmirsə, Ermənistana təzyiq edilsin və cəzalandırılsın. Təəssüf ki, sadaladıqlarımızın heç biri baş vermir. Əvəzində, işğalçı ilə işğala məruz qalana eyni münasibət göstərilir. Bunun isə bir adı var-ikili standartlar. Ölkəmizin başçısı isə haqlı olaraq bəyan edir ki, bu yanaşma qəbuledilməzdir."

Vüqar Rəhimzadə onu da bildirdi ki, Azərbaycan Prezidentinin BMT-nin ali tribunasından ölkəmizin beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlığı, Azərbaycanın dünyanın tanınmış multikulturalizm mərkəzlərindən biri olması, sosial və iqtisadi sahələrdə nail olduğumuz böyük inkişaf, dövlətimizin beynəlxalq bazarlarda etibarlı neft və qaz təchizatçısı kimi tanınması ilə bağlı səsləndirdiyi dəyərli fikirlər, bir daha onu deməyə əsas verir ki, Azərbaycan regionun ən qüdrətli ölkəsidir və böyük güclərin əsas tərəfdaşlarındandır.

# Azərbaycan Prezidentinin BMT-nin Baş Assambleyasındakı tarixi çıxışı önəmli yer tutur



***Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında etdiyi çıxışları və səsləndirdiyi bəyanatları, ilk növbədə, sübut etdi ki, Azərbaycan möhkəm təməllərə söykənən və əsaslı demokratik dəyərlərə cavab verən ölkə kimi inkişaf yolunu sürətlə davam etdirən dövlətlər sırasında yer alıb. O cümlədən, qısa müddət ərzində görülən işlər, xüsusilə, nəhəng beynəlxalq sosial-iqtisadi layihələrin reallaşdırılması ətrafında irəli sürülən fikirlər, eləcə də, insan hüquqlarının və azadlıqlarının qorunması, demokratik dəyərlərin inkişafı ölkəmizin dinamik tərəqqisinin bariz göstəricisi olaraq qiymətləndirildi.***

Dövlət başçımızın çıxışı ilə bağlı müraciət etdiyimiz politoloqlar da açıqladıqları fikirlərində vurğuladılar ki, Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli çıxışı BMT-nin Baş Assambleyası tarixində rast gəlinən nadir və uzun illər yadda qalacaq fikirlər kimi dəyərləndirilə bilər.

## Politoloq Arzu Nağıyev: “Prezident İlham Əliyev də öz fikirlərini irəli sürərkən vurğuladı ki, Dağlıq Qarabağda baş verən proseslərdə, Azərbaycanın ərazilərinin işğalında, Xocalı soyqırımının baş verməsində birbaşa cavabdehlərdən biri hazırda prezident kürsüsündə əyləşdirilmiş Serj Sarkisyandır”

Politoloq Arzu Nağıyev ölkə başçımızın qətiyyətli və əhatəli çıxışı ilə bağlı münasibətini açıqlayarkən bildirib ki, Prezident İlham Əliyev öz mövqeyi ilə işğalçı dövlətin başçısını, demək olar ki, nokaut vəziyyətinə salaraq, dalana sıxışdırdı.

“Sarkisyan öz ampluasına uyğun olaraq, Dağlıq Qarabağ münaqişəsində status-kvonu saxlamağa cəhd edilən çıxışları ilə yadda qalmağa çalışırdı”-deyə xatırladan Arzu Nağıyevə görə, Sarkisyanın belə bir mövqe sərgiləməsi, bir daha göstərdi ki, onun düşüncələri dövlət başçısının deyil, uzağı bir səhra komandirinin fikirləridir: “Prezident İlham Əliyev də öz fikirlərini irəli sürərkən vurğuladı ki, Dağlıq Qarabağda baş verən proseslərdə, Azərbaycanın ərazilərinin işğalında, Xocalı soyqırımının baş verməsində birbaşa cavabdehlərdən biri hazırda prezident kürsüsündə əyləşdirilmiş Serj Sarkisyandır”.

## “Cənab Prezident bütün dünyaya bəyan etdi ki, Serj Sarkisyan işğalçı səhra komandirliyindən prezident vəzifəsinə əyləşdirilib”

Politoloq, həmçinin, digər bir amilə də toxunaraq, qeyd edib ki, ortada Azərbaycanın əzəli torpaqlarının işğal altında olmasına baxmayaraq, dünya birliyi bu məsələyə ikili standartlardan yanaşır. Lakin ölkə başçımızın tarixi çıxışı, Qarabağ münaqişəsində, danışıqlar prosesində cərəyan edən amilləri təhlil etməsi, bir daha dünyanın diqqətini həmin istiqamətə tərəf yönəltmiş oldu: “Çox acınacaqlı haldır ki, ortada işğalçılıq faktları ola-ola, bütün dünya Dağlıq Qarabağ münaqişəsinin həllinə ikili standartlardan yanaşır. Necə ola bilər ki, anormal bir şəxsin dağıtdığı dövlət bütün dünyanın gözü qarşısında işğalçılıq siyasətini yürüdür? Məhz bu kontekstdən çıxış edən ölkə rəhbərimiz öz fikirlərində bütün bunların hər birini ən xırda detalınadək vurğuladı və bütün dünyaya bəyan etdi ki, Serj Sarkisyan işğalçı səhra komandirliyindən həmin vəzifəyə əyləşdirilib”.

## Politoloq Elçin Mirzəbəyli: “Prezident aprel döyüşlərini nümunə gətirməklə işğalçıların sülhə məcbur edilməyəcəyi təqdirdə, hərbi əməliyyatların başlaya biləcəyi ehtimallarını irəli sürdü... Bu, işğalçıya münasibətdə müharibə anonsunun verilməsi idi”

Politoloq E.Mirzəbəyli isə, öz növbəsində, bildirdi ki, ümumiyyətlə, Azərbaycan Prezidentinin çıxışını son illərdə BMT-nin Baş Assambleyasında edilmiş ən cəsarətli çıxış kimi qiymətləndirmək olar. “Ona görə ki, dövlət başçısı beynəlxalq hüquqdan və öhdəliklərdən irəli gələn addımların atılmadığını, BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrinin icra edilmədiyini vurğulamaqla kifayətlənmədi”-deyə qeyd edən politoloq bildirib ki, Azərbaycanın dövlət başçısı dünya dövlətləri qarşısında ərazilərimizin işğal altında qalacağı ilə barışmayacağını  bildirib: “Cənab Prezident aprel döyüşlərini nümunə gətirməklə işğalçıların sülhə məcbur edilməyəcəyi təqdirdə, hərbi əməliyyatların başlaya biləcəyi ehtimallarını irəli sürdü. Yəni faktiki olaraq bu, işğalçıya münasibətdə müharibə anonsunun verilməsi idi”.

## “Prezident İlham Əliyev bəyan etdi ki, Ermənistan prezidenti hərbi xuntanın başçısıdır, cinayət yolu ilə hakimiyyəti mənimsəyib və bu şəxs azərbaycanlılara qarşı soyqırımının həyata keçirilməsi prosesində aparıcı mövqe tutub”

Elçin Mirzəbəyliyə görə, Prezident İlham Əliyev hamının başa düşəcəyi dildə bildirdi ki, əgər beynəlxalq öhdəliklər yerinə yetirilmirsə, ikili standartlar davam edirsə, BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin maraqlarını təmin edən və digər dövlətlərlə bağlı qəbul edilmiş qətnamələrin icrasının həyata keçirilməsinə dərhal nail olunursa, Azərbaycanın isə qəbul edilmiş qətnamələrə rəğmən torpaqları qeyd-şərtsiz işğaldan azad olunmursa, bu zaman, şübhəsiz ki, ölkəmizin öhdəsinə öz torpaqlarını işğaldan azad etmək düşür: “Nəzərinizə çatdırım ki, BMT-nin tribunasından çox nadir hallarda belə fikirlər səsləndirilir, bu cür anonslar verilir. Həmçinin, Qarabağ münaqişəsi dünyada ikili standartların mövcudluğunun ən bariz nümunəsidir. Çünki digər faktorlar gözümüzün önündə var və Ermənistanla müqayisədə dəfələrlə güclü olan dövlətlərə qarşı müvafiq sanksiyalar tətbiq edilir və sülhə məcbur etmək istiqamətində addımlar atılır”.

Politoloq erməni prezidentinin maskasının yırtıldığını vurğulayıb: “Digər amil, şübhəsiz ki, Ermənisatan prezidentinin maskasının yırtılmasıdır ki, Azərbaycan Prezidenti bir neçə ifadə ilə, hətta Sarkisyanın adını çəkmədən onun mahiyyətini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı. Bu, nədən ibarətdir: Prezident İlham Əliyev bəyan etdi ki, Ermənistan prezidenti hərbi xuntanın başçısıdır, cinayət yolu ilə hakimiyyəti mənimsəyib və bu şəxs azərbaycanlılara qarşı soyqırımının həyata keçirilməsi prosesində aparıcı mövqe tutub, bilavasitə Xocalı canisidir, qatildir və belə bir qatilin Azərbaycanın ünvanına hər hansı fikir səsləndirməsinə mənəvi haqqı yoxdur.

## “Ermənistan prezidenti də, onu dəstəkləyən bəzi erməni cəmiyyətinin üzvləri də həmin fikirlərin hamısının deyil, hələ 1 faizi altında qalarlarsa, əzilməyə məhkum olarlar”

Digər amil isə, şübhəsiz ki, Sarkisyanın səsləndirdiyi fikirlərin dolayısı ilə alt-üst edilməsidir. Sarkisyan hakimiyyətdə olduğu dövrdə ölkəsində hər hansı bir nailiyyətə imza atması ilə bağlı fikir səsləndirmədi. Çünki bu fikir yoxdur, mövcud deyil və həm Sarkisyan, həm də onun sələfləri yalnız işğalçılıq siyasətini davam etdiriblər, öz xalqlarını isə feodal qanunları ilə idarə ediblər”.

“Ancaq bütün bunların müqabilində Azərbaycanın gördüyü işlər nümunə gətirildi”-deyə qeyd edən E.Mirzəbəyliyə görə, Azərbaycanda multikultural dəyərlərin inkişafı barədə faktlar ortaya qoyuldu, eləcə də, insan haqları azadlıqlarının, demokratik dəyərlərin qorunmasında islahatların aparılmasında görülən işlər barədə məlumatlar verildi: “Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərində, enerji dəhlizlərində oynadığı rolu, reallaşdırdığı nəhəng layihələri barədə vurğulandı. Bu layihələrin, nəinki Azərbaycan, eləcə də, bütün region üçün nə qədər əhəmiyyət kəsb etməsi bildirildi. Eyni zamanda, daha geniş ərazini əhatə edən Cənub Qaz Dəhlizinin həyata keçirilməsi istiqamətində addımların atıldığı, xüsusilə, vurğulandı. Ölkəmizdə həyata keçirilən infrastruktur layihələrinin -  təhsil müəssisələrinin, sağlamlıq mərkəzlərinin və s. inşa edilməsi, ümumiyyətlə, bu günə qədər görülən qlobal işlər nəzərə çatdırıldı. Ermənistan prezidenti də, onu dəstəkləyən bəzi erməni cəmiyyətinin üzvləri də həmin fikirlərin hamısının deyil, hələ 1 faizi altında qalarlarsa, əzilməyə məhkum olarlar”.

Politoloq onu da bildirib ki, ümumiyyətlə, BMT Baş Assambleyasında çıxış edən iki şəxsi, məhz bu cür müqayisə etmək olar - onlardan biri öz xalqının firavan yaşaması üçün çalışan, işğal altındakı torpaqlarını azad etmək üçün qətiyyətlilik nümayiş etdirən xalqının Lideri, digəri isə xalqına qarşı cinayətlər törədən cani idi ki, öz cinayətləri yalanları ilə ört-basdır etməyə çalışırdı: “Beləliklə, hesab edirəm ki, Azərbaycan Prezidenti İlham Əliyev Cənablarının BMT-nin Baş Assambleyasındakı çıxışı təkcə Azərbaycan tarixində deyil, bütövlükdə Baş Assambleyanın tarixində çox önəmli yer tutacaq”.

***Rövşən NURƏDDİNOĞLU***





# BSU rektoru birinci kurs tələbələri ilə görüşüb

*Dünən Bakı Slavyan Universitetində ali təhsil rəhbərliyinin 1-ci kurs tələbələri ilə görüşü keçirilib. Görüşdə çıxış edən BSU-nun rektoru, professor Nurlana Əliyeva tələbələrə müraciət edərək, onların həyatında yeni bir mərhələnin başlandığını vurğulayıb. O, BSU-nun tələbələrinin universitetə öz doğma ocaqları kimi baxmalarının vacibliyini qeyd edib: "Mən istəyirəm ki, hər bir tələbə öz universiteti ilə fəxr etsin, bu sevgi onun qəlbinə, ruhuna hopsun".*



Rektor əvvəllər M.F.Axundov adına Rus Dili və Ədəbiyyatı adlanan institutun 17 il öncə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Bakı Slavyan Universitetinə çevrildiyini, Onun xeyir-duası ilə fəaliyyətə başladığını bildirib. N.Əliyeva hazırda universitetin əksər slavyan ölkələri ilə sıx əlaqələrə malik olduğunu, universitetdə 11 tədris-mədəniyyət mərkəzinin fəaliyyət göstərdiyini diqqətə çatdırıb. O, BSU-nun ən çox Rusiyanın ali məktəbləri ilə əməkdaşlıq etdiyini, bu ölkənin 27 universiteti ilə tələbə-müəllim mübadiləsi aparıldığını bildirib. Rektor daha sonra universitet daxilində yaradılmış mühitin multikulturalizmə layiqli töhfə olduğunu nəzərə çatdırıb. O, xatırladıb ki, bizim gənclik həm də vətənpərvərlik və patriotizm duyğuları ilə fərqlənir. Rektor buna misal olaraq, ötən il aprel döyüşlərində Azərbaycan əsgərlərinin və zabitlərinin göstərdiyi qəhrəmanlığı və igidliyi yüksək qiymətləndirib. N.Əliyeva gənclərə müraciətlə Ulu Öndərin azərbaycançılıq ideologiyası ilə irəli getməyin vacib olduğunu bir daha diqqətə çatdırıb.

Sonda N.Əliyeva və prorektorlar gəncləri maraqlandıran suallara cavab veriblər. Çıxışlardan sonra universitetin tərbiyə işləri üzrə prorektoru, dosent Xanım Sultanovanın rəhbərliyi ilə Mədəni-kütləvi tədbirlərin təşkili şöbəsinin əməkdaşları musiqi, rəqs və bədii qiraət bacarığı olan istedadlı I kurs tələbələri arasında seçim aparıblar.

**ZÜMRÜD BAYRAMOVA**

# Yeni Azərbaycan Partiyası milli dövlətçiliyimizə misilsiz xidmətlərlə şərəfli yol keçib

*Dünən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illiyi münasibəti ilə konfrans keçirilib. Konfrans Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi ilə başlayıb. Tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümov 25 il bundan əvvəl yaranan Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli tarixinə nəzər salıb: "1992-ci il noyabrın 21-də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Sədrliyi və tanınmış ziyalıların iştirakı ilə Naxçıvan şəhərində YAP-ın təsis konfransının keçirilməsi o zaman yeni müstəqillik qazanmış ölkəmizin bu müstəqilliyi itirmək təhlükəsindən xilas olmasına, ölkəmizin müqəddəratının tənəzzüldən tərəqqiyə doğru dəyişməsinə aparan yolun başlanğıcı oldu. 1993-cü ilin iyun ayında - Azərbaycanın taleyinin sual altında qaldığı, bütün sahələri bürümüş ağır böhran şəraitində gələcəyə ümidlərin tükəndiyi bir vaxtda xalqın iradəsi ilə Ulu Öndər Heydər Əliyevin yenidən respublika rəhbərliyinə qayıdışı müasir tariximizin ən şərəfli səhifəsidir"*

Nazir diqqətə çatdırıb ki, Ulu Öndər Heydər Əliyev tərəfindən, eyni zamanda, yeni iqtisadi münasibətlər şəraitində sosial inkişaf kursunun etibarlı təməli formalaşdırılıb: "2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrdə yeni nailiyyətlərlə müşahidə olunan sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub. Bu gün Cənubi Qafqazda iqtisadi qüdrətinə görə öndə olan Azərbaycan ötən dövrdə milli iqtisadiyyatını 3,4 dəfə, o cümlədən uğurlu iqtisadi şaxələndirmə nəticəsində qeyri-neft sektorunu 2,6 dəfə artırıb".

S.Müslümov çıxışında onu da vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərlik etdiyi, hazırda 700 mindən çox insanı sıralarında birləşdirən YAP bu gün də müstəqilliyimizin, demokratik, hüquqi, dünyəvi dövlətimizin möhkəmləndirilməsi, dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunması proseslərində daim yaxından iştirak edir və bu, partiyaya ümumxalq inam və etimadının daim artması ilə müşahidə olunur.

YAP-ın sıralarının getdikcə genişləndiyini qeyd edən S.Müslümov YAP-ın nazirlik üzrə Salatın Əsgərova, 85 ilk ərazi təşkilatının da fəaliyyətini partiyanın siyasi xəttinə uyğun şəkildə qurduğunu diqqətə çatdırıb. Nazir YAP-ın nazirlik üzrə bütün üzvlərini partiyanın yaranmasının 25 illiyi münasibəti ilə təbrik edərək, onlara fəaliyyətlərində yeni uğurlar arzulayıb.

Konfransda YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov çıxış edərək Yeni Azərbaycan Partiyasının yaranması tarixindən danışıb. T.Əhmədov bu siyasi təşkilatın Ulu Öndərimiz Heydər Əliyevin müdrik və uzaqgörən siyasi kursuna uyğun olaraq dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsi, ölkəmizin hərtərəfli inkişafı istiqamətində xidmətlərini diqqətə çatdırıb.

Tədbirdə digər çıxış edənlər ilk ərazi təşkilatının fəaliyyəti, təşkilatın ötən dövr ərzində həyata keçirdiyi tədbirlər, təşkilatda qeydiyyatda olan əməkdaşlarla aparılan işlər barədə məlumat veriblər.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Silahlı Qüvvələrin genişmiqyaslı təlimlərinin döyüş atışlı mərhələsi icra olunub

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən keçirilən genişmiqyaslı təlimlərin döyüş atışlı əsas mərhələsi icra olunub.*

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, plana uyğun olaraq bu mərhələdə artilleriya, hava hücumundan müdafiə vasitələri, aviasiya, eləcədə digər birləşmələr yeni silah və texnikanın tətbiqi ilə təlim-döyüş tapşırıqlarını yerinə yetiriblər.



Mürəkkəb dağlıq relyef və radioelektron, həmçinin digər xarakterik xüsusiyyətlər şəraitində keçirilən təlimlərdə



qoşunların müasir ümumqoşun əməliyyatlarının keçirilməsinin müxtəlif üsullarının icrası üzrə bacarıq və vərdişləri praktiki olaraq təkmilləşdirilib, qoşunların və idarəetmə sistemlərinin qarşılıqlı əlaqədə effektiv tətbiqi həyata keçirilib. Müxtəlif poliqonlarda və müasir avadanlıqla təchiz edilmiş təlim sahələrində yeni silah sistemlərinin də istifadəsi ilə döyüş atışları icra olunub, bölmələrin və atəşin manevrləri yerinə yetirilib.

# Rusiyalı turistlər Bakıda gündə təxminən 78 dollar xərcləyir

"TurStat" analitika agentliyi bu ilin payızında rusiyalı turistlərin ən çox səyahət etdikləri MDB ölkələrindəki şəhərlərin adlarını açıqlayıb. "Vesti. Ekonomika" saytı xəbər verir ki, Azərbaycan paytaxtı bu siyahıda 3-cü yeri tutub.



Məlumatda bildirilir ki, rusiyalı turistlər Bakıya, orta hesabla 3 günlük gəlirlər və gündə təxminən 78 dollar xərcləyirlər. "Vesti.Ekonomika" Bakını Cənubi Qafqazın ən iri sənaye, iqtisadi və elmi-texniki mərkəzi, Xəzərdə ən böyük liman şəhəri kimi təqdim edir: "Bakı öz tarixinə, sahəsinə və əhalisinin sayına görə Şərqin ən qədim və böyük şəhəridir".

# Cocuq Mərcanlıdan bəhs edən kitabın və filmin təqdimatı olub

***Sentyabrın 21-də Bakıda "İlham Əliyev bizi Cocuq Mərcanlıya qaytardı" kitabının və "Böyük Qayıdışın başlanğıcı - Cocuq Mərcanlı" filminin təqdimatına həsr olunan tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları Cocuq Mərcanlının işğaldan əvvəlki vəziyyətini və bərpası ilə bağlı görülən işləri əks etdirən stendlərə baxıblar. Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov tədbirdə çıxış edərək bildirib ki, Cocuq Mərcanlıya həsr olunan kitab və film Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə hazırlanıb. Diqqətə çatdırılıb ki, son iki yüz ildə ermənilər tərəfindən mütəmadi olaraq zəbt edilmiş Azərbaycan torpaqlarının bir qismi ilk dəfə olaraq ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş Horadiz əməliyyatı zamanı işğaldan azad edildi. O vaxt Füzuli rayonunun bir çox yaşayış məntəqələri, eləcə də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi düşməndən geri alındı. Ötən ilin aprel döyüşləri nəticəsində qəhrəman Azərbaycan Ordusunun mühüm strateji əhəmiyyətə malik Lələtəpə yüksəkliyini azad etməsi isə əhalinin Cocuq Mərcanlıya qayıdaraq rahat yaşamasına imkan yaratdı.***







Əli Həsənov diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin "İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında" 2017-ci il 24 yanvar tarixli Sərəncamı ilə Böyük Qayıdış prosesinə start verildi. Həmçinin dövlətimizin başçısının tapşırığı ilə xarici KİV-lərin və ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun nümayəndələrinin Cocuq Mərcanlıya səfəri təşkil edildi və erməni vəhşiliyi ilə bağlı dolğun məlumatlar qısa müddətdə bütün dünyaya yayıldı. Bütün dünya cəmi dörd ay ərzində işğal altında qalmış bir kənddə ermənilərin törətdikləri vandalizmdən xəbər tutdu. Bununla da ermənilərin son 200 ildə uydurduqları yalan və böhtanlar ifşa edildi. "Cocuq Mərcanlıya bu səfərlərin təşkili, ermənilərin bu kənddə törətdikləri vəhşiliklər barədə məlumatların dünyaya yayılması, onların uydurduqları yalanların ifşası dövlətimizin başçısının uzaqgörənliyi sayəsində mümkün oldu. Qısa müddətdə Cocuq Mərcanlı kəndi bütün dünyaya səs saldı. Bütün bunlar Böyük Qayıdışın başlanğıcıdır",- deyə Əli Həsənov vurğulayıb.

Prezident İlham Əliyevin iyunun 14-də Cocuq Mərcanlıda ilk qəsəbənin açılışında iştirak etdiyini deyən Baş nazirin müavini bildirib ki, dövlətimizin başçısı Cocuq Mərcanlıya səfəri zamanı burada 23 ildir yaşayan yeganə ailənin - Oqtay Həziyevin ailəsinin qonağı oldu. Uzun illər düşmən mərmisinin atəşləri altında yaşayan bu insanların şücaətini doğma torpağa və Vətənə bağlılıq nümunəsi kimi dəyərləndirdi.

Bu səfərdən bir gün sonra, iyunun 15-də Prezident "Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində bərpa işlərinin davam etdirilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzaladı. Hazırda orada 100 fərdi yaşayış evinin tikinti işləri aparılır. "Cocuq Mərcanlıya köçmək üçün bizə 300-ə yaxın ailə müraciət edib. Artıq 50 ailə bu kəndə köçürülüb. Başqa rayonların, o cümlədən köçkün olmayan rayonların əhalisi də Cocuq Mərcanlıya köçmək üçün bizə müraciət edirlər. Budur Vətənə, torpağa, dövlətə sadiq, bağlı Azərbaycan vətəndaşları. Bütün sahələrdə olduğu kimi, vətəninə, torpağına bağlılıqda da Azərbaycan vətəndaşları bütün dünyaya nümunədirlər ", - deyə Əli Həsənov qeyd edib.

Nyu-Yorkda keçirilən BMT-nin Baş Assambleyasının 72-ci sessiyasına toxunan Əli Həsənov bildirib ki, Ermənistandakı cinayətkar rejimə rəhbərlik edən Serj Sarkisyan sessiyadakı çıxışı ilə həyasızlığın, arsızlığın ən yüksək zirvəsinə qalxdı. "Həyasızlığın dərəcəsinə baxın ki, o, 25 ildir torpaqlarının 20 faizini işğal altında saxladığı bir ölkəyə irad tutur. Hesab edirəm ki, bu Serj Sarkisyanın beyninin məhsulu deyil. O çıxışı hazırlayanlar elə Sarkisyanın hakimiyyətinə son qoymaq istəyirlər. Bu çıxışla Ermənistan prezidenti özünü bütün dünya ictimaiyyəti qarşısında rüsvay etdi. Azərbaycan Prezidenti isə BMT-nin mötəbər tribunasında məğrurcasına dayanaraq, işğalçı və cinayətkar Ermənistandakı işğalçı rejimin başçılarını, eləcə də beynəlxalq təşkilatlara ciddi mesajlar verdi. Həmçinin çıxış üçün ayrılmış çox qısa bir vaxt ərzində ölkəmizin keçdiyi inkişaf yolu, qazandığı böyük uğurlar barədə dolğun təsəvvür yaratdı".

Komitə sədri İslam Əməkdaşlıq Təşkilatının Ermənistanın Azərbaycana qarşı təcavüzü üzrə Kontakt Qrupunun Nyu-Yorkda keçirilən iclasına da toxunaraq deyib: "İclasda qərar qəbul olunub ki, təşkilata üzv ölkələr Ermənistanla əlaqələrini məhdudlaşdırsınlar. Hesab edirəm ki, bu azdır. İslam Əməkdaşlıq Təşkilatı özü qərar qəbul etməlidir ki, üzv ölkələr Ermənistanla əməkdaşlığı dayandırsın".

Sonra "Böyük Qayıdışın başlanğıcı - Cocuq Mərcanlı" filmi nümayiş olunub. Filmin nümayişindən sonra Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov "İlham Əliyev bizi Cocuq Mərcanlıya qaytardı" kitabı barədə məlumat verib.

Bu nəşrin nadir kitab olduğunu bildirən Bəxtiyar Sadıqov qeyd edib ki, indiyədək Qarabağ, müharibə mövzusunda bir çox dəyərli kitablar yazılıb. Təqdimatı keçirilən bu kitab isə ilk dəfə olaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindəki keyfiyyət dəyişikliyindən bəhs edir. Bu kitabın təkcə Azərbaycan oxucuları üçün nəzərdə tutulmadığını deyən baş redaktor nəşrin qısa müddət ərzində rus və ingilis dillərinə tərcümə olunduğunu bildirərək deyib: "Kitab gələcəkdə digər dillərə də tərcümə olunacaq. Kitabda tarixi baxımdan zəruri olan sənədlərə, aprel zəfərinin səbəb və nəticələrinə, Prezident İlham Əliyevin aprel döyüşləri barədə fikirlərinə geniş

# Cocuq Mərcanlıdan bəhs edən kitabın və filmin təqdimatı olub








yer ayrılıb. İşğal nəticəsində həm Cocuq Mərcanlı kəndinə, həm Cəbrayıl rayonuna vurulan ziyan fakt və sənədlərlə göstərilib. Kitaba həm aprel zəfəri, həm də Böyük Qayıdışın başlanğıcı ilə bağlı Milli Məclisin deputatlarının, siyasətçilərin, politoloqların, müxtəlif sahələrdə çalışan insanların fikirləri də daxil edilib".

Daha sonra Cocuq Mərcanlı kəndinin sakini Oqtay Həziyev çıxış edərək Azərbaycan Prezidentinin Sərəncamından sonra kənddə görülən genişmiqyaslı abadlıq-quruculuq işlərindən danışıb, sakinlərin bu prosesdə fəal iştirak etdiklərini diqqətə çatdırıb.

Cocuq Mərcanlı haqqında film və kitabın ərsəyə gəlməsinə görə dövlətimizin başçısına təşəkkürünü bildirən O.Həziyev deyib: "Mən də köçkünlük həyatını, müharibənin ağrı-acısını yaşamışam. Həmin vaxt ailəmiz beş ay məcburi köçkün həyatı sürməyə vadar olmuşdu, çünki ermənilər bizim kəndi də işğal etmişdi. Ulu Öndərimizin komandanlığı altında Horadiz əməliyyatında bir çox yaşayış məntəqəsi, o cümlədən Cocuq Mərcanlı kəndi işğaldan azad olundu. Birmənalı qərar verdim ki, öz ailəmlə birlikdə doğma torpağımda yaşayacam. Həmin vaxtlar burada vəziyyət çox ağır idi. Ermənilər hər şeyi məhv edib dağıtmışdı. Əkinçiliklə, təsərrüfatla məşğul olub, hər şeyi yenidən qurdum. Aprel döyüşlərindən sonra Lələtəpə yüksəkliyi azad edildi. Bu strateji yüksəkliyin əvvəllər ermənilərin əlində olması bizim təhlükəsiz yaşamağımıza ciddi maneə törədirdi. Prezidentimizin Sərəncamından sonra Cocuq Mərcanlıda 50 yaşayış evi, məktəb və gözəl Şuşa məscidinin bənzəri olan məscid inşa edildi. Prezident kəndin açılışına özü gəldi. Bizimlə görüşərək çox səmimi söhbət etdi. Mənə Azərbaycan Respublikasının birinci dərəcəli "Əmək" ordenini şəxsən təqdim etdi. Bütün bu diqqətə və qayğıya görə bir daha dövlətimizin başçısına minnətdarlığımı bildirirəm".

Tədbirdə Azərbaycanın dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, ölkəmizdə akkreditə olmuş diplomatik korpusun və ölkə ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

səs
www.sesqazeti.az
facebook Ses Media Holding
22 sentyabr 2017-ci il


Subscribe to our FREE Daily News Blast ADD ME
THE JERUSALEM POST
Arab-Israeli Conflict · Israel News · Opinion · Middle East · Diaspora · Israeli Innovation · American Politics · Not Just News · Premium · Christian News · Green Israel · Blogs

NEWS FROM ARYE GUT

Why Azerbaijan is important for American Jewish Lobby?

Share on Facebook · Twitter · Google Plus

Tomorrow Jewish people in the entire world will celebrate Rosh Ashana. The Jewish New Year, Rosh Hashanah actually means "Head of the Year." Just like the head controls the body, our actions on Rosh Hashanah have a tremendous impact on the rest of the year. It is a day of prayer, a time to ask the Almighty to grant us a year of peace, prosperity and blessing. However, it is also a joyous day when we proclaim G-d King of the Universe.

President of Azerbaijan Republic Ilham Aliyev

Every year President of Azerbaijan Republic Ilham Aliyev, the strategic partner of Israel applied to Jewish community and congratulated with this holy Jewish holiday. "I cordially congratulate you on the occasion of the New Year's holiday of the Jewish people - Rosh Hashanah, I convey my most sincere wishes.

Sponsored Articles
The IDF recently completed a large scale drill in the country's north.
Christians raise money for vandalized West Bank honey farm
Don't let your wife catch you playing this game!

# "The Jerusalem Post": "Nəyə görə Azərbaycan Amerika yəhudi lobbisi üçün zəruridir?"

***Bu gün bütün dünya yəhudiləri Roş-Ha-Şana bayramını - yəhudi Yeni İlini qeyd edəcək. Əslində bu bayramın adının mənası "İlin Başı" deməkdir. Yəni insanın başı onun hərəkətlərinə nəzarət etdiyi kimi, Roş-Ha-Şana bayramı da ilin qalan hissəsinə çox böyük təsir göstərir. Həmin gün Ulu Tanrıya dua edərək bizə sülh, firavanlıq ili və xeyir-dua bəxş etməsini diləyirik.***

İsrail Dövlətinin strateji tərəfdaşı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, ənənəyə görə, hər il bu bayram ərəfəsində öz ölkəsinin yəhudi icmasına müraciət edir və bu müqəddəs bayram münasibətilə yəhudi xalqını təbrik edir.

AZƏRTAC xəbər verir ki, beynəlxalq münasibətlər sahəsində tanınmış ekspert, İsraildəki "Cəmiyyət üçün beynəlxalq layihələr" adlı qeyri-hökumət təşkilatının rəhbəri Arye Qut bu haqda İsraildə çıxan ən nüfuzlu ingilisdilli "The Jerusalem Post" qəzetinin 20 sentyabr tarixli nömrəsində dərc edilmiş "Nəyə görə Azərbaycan Amerika yəhudi lobbisi üçün zəruridir?" sərlövhəli məqaləsində yazır.

Məqalə müəllifinin sözlərinə görə, Prezident İlham Əliyev öz təbrik məktubunda vurğulayır ki, sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycan bu gün multikultural ənənələrin qorunub saxlanıldığı, ayrı-ayrı dinlər və mədəniyyətlər arasında qarşılıqlı hörmət və etimad mühitinin mövcud olduğu nadir məkanlardandır.

Azərbaycan Prezidentinin təbrik məktubunda deyilir: "Azərbaycanda məskunlaşıb yaşayan yəhudi icmasının cəmiyyətimizdə özünəməxsus yeri vardır. Əlamətdar haldır ki, yəhudi vətəndaşlarımız ölkə həyatının bütün sahələrində yaxından iştirak edir, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fəal vətəndaş mövqeyi nümayiş etdirirlər.

Roş-Ha-Şana özündə yeniliyi, mənəvi saflığı və həmrəyliyi təcəssüm etdirən bir bayramdır. Yəhudi xalqının bu əziz günü qoy hamınızın həyatına xoş ovqat, ailələrinizə xoşbəxtlik və sevinc gətirsin.

Bayramınız mübarək olsun!".

Bundan bir neçə gün sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nyu-Yorkda ABŞ-ın israilpərəst lobbi təşkilatlarının nümayəndələri - Amerika Yəhudi Təşkilatının, "Bnai Brith International" Təşkilatının, Ümumdünya Yəhudi Konqresinin, Avrasiya yəhudilərini dəstəkləyən Milli Koalisiyanın, Şimali Amerika Yəhudi Federasiyalarının, Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının rəhbərləri ilə görüşüb.

Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının icraçı vitse-sədri, baş icraçı direktor Malkolm Honlayn görüşdə çıxış edib. O deyib ki, nümayəndə heyətində təmsil olunmuş təşkilatlar Azərbaycan ilə əməkdaşlığa böyük əhəmiyyət verirlər. Malkolm Honlayn Bakıda Prezident İlham Əliyev ilə görüşü məmnuniyyət hissi ilə xatırlayaraq qeyd edib ki, Azərbaycan ona müasir və dinamik inkişaf edən bir ölkə kimi çox dərin təsir bağışlayıb. O, Azərbaycan ilə ABŞ arasında, həmçinin Azərbaycan ilə İsrail arasında səmərəli əməkdaşlıq olmasını məmnuniyyətlə vurğulayıb.

Prezident İlham Əliyev yəhudi təşkilatlarının bu görüşdə iştirak edən rəhbərlərindən çoxunun Azərbaycanda olmasını xatırlayaraq qeyd edib ki, onlar ölkəmizin qazandığı uğurlar barədə məlumatlandırılıb. Azərbaycan dövlətinin başçısı Azərbaycanda gedən inkişaf prosesləri barədə məlumatın yayılmasının vacibliyini vurğulayıb. Azərbaycan ilə ABŞ arasında münasibətlərin uğurla inkişaf etdiyini vurğulayan Prezident ilham Əliyev Azərbaycan-İsrail əlaqələrinin inkişafından məmnun olduğunu bildirib.

Söhbətin gedişində Amerika yəhudi təşkilatlarının rəhbərləri Azərbaycanda digər icmalar kimi, yəhudi icmasının da qarşılıqlı anlaşma və əmin-amanlıq şəraitində yaşaması üçün yaradılmış şəraitə görə minnətdarlıq bildiriblər. Onlar Azərbaycanda sabitliyin və təhlükəsizliyin yüksək səviyyədə olmasını qeyd edərək Odlar Yurdunun multikulturalizm və tolerantlıq siyasətinə sadiq olmasını yüksək qiymətləndiriblər.

Məqalədə qeyd edilir ki, bir il bundan əvvəl Ümumdünya Yəhudi Konqresinin (WJC) prezidenti Ronald Lauder başda olmaqla WJC-nin, Avrasiya Yəhudi Konqresinin və Rusiya Konqresinin (RJC) nümayəndə heyəti Bakıda səfərdə olub və orada danışıqlar aparıb.

Məqalə müəllifi vurğulayır: "Lauder Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşdə əhalisinin əksəriyyəti müsəlmanlar olan bu keçmiş sovet respublikasında yəhudilərin vəziyyəti çox yaxşı səviyyədə olmasını qeyd edib və buna görə Azərbaycan dövlətinin başçısına səmimi təşəkkürünü bildirib. Prezident Əliyev də öz növbəsində vurğulayıb ki, o özü və onun administrasiyası Azərbaycandakı yəhudi icması ilə, İsrail Dövləti ilə, həmçinin Ümumdünya Yəhudi Konqresi kimi beynəlxalq qeyri-hökumət təşkilatları ilə "əla münasibət" qurublar. İlham Əliyev deyib ki, aşkinazi yəhudiləri, Avropa yəhudiləri və dağ yəhudiləri iki min ildən çoxdur Azərbaycan ərazisində yaşayır. Bütün bu dini və etnik icmalar ölkəmizdə bir-birilə harmoniya şəraitində yaşayıblar və yaşayırlar".

Arye Qutun sözlərinə görə, Ümumdünya Yəhudi Konqresinin vitse-prezidenti və eyni zamanda Rusiya Yəhudi Konqresinin prezidenti olan Yuri Kanner görüşdən sonra deyib: "Prezident İlham Əliyevi və Ümumdünya Yəhudi Konqresinin prezidenti Ronald Lauderi maraqlandıran bütün mühüm məsələlər barəsində çox səmimi və məzmunlu diskussiya oldu. Bu gün burada baş verən prosesləri anlamaq və qeyd etmək lazımdır ki, bu proseslər əhalisinin əksəriyyəti müsəlmanlar olan digər ölkələr üçün nümunədir. Görüşün bütün iştirakçıları bu multikulturalizm modelinin uğurlu olmasını qeyd etdilər".

Ümumdünya Yəhudi Konqresinin vitse-prezidenti Qod Nisanov görüşdəki çıxışında deyib: "Çox şadam ki, Prezident İlham Əliyevlə görüş olduqca yüksək səviyyədə keçdi, bu görüş Azərbaycanda yaşayan yəhudilər üçün də böyük əhəmiyyət kəsb edir. Əslən Azərbaycandan olan bizlər üçün böyük şərəfdir ki, Ümumdünya Yəhudi Konqresinin prezidenti Azərbaycana səfər edib. Ümidvaram ki, nümayəndə heyətinin Azərbaycanın firavanlasan və gözəl ölkə olmasını, burada heç vaxt antisemitizmə yer olmadığını və indi də yer olmamasını öz gözləri ilə görüb qiymətləndirməyə imkanı olacaq".

Məqalə müəllifi yazır ki, Ümumdünya Yəhudi Konqresinin nümayəndə heyətinin Azərbaycan səfərinin təşəbbüskarı əslən Azərbaycandakı yəhudilər yaşayan məşhur Qırmızı Qəsəbədən olanlar - Ümumdünya Yəhudi Konqresinin vitse-prezidenti Qod Nisanov və Rusiya Yəhudi Konqresinin vitse-prezidenti German Zaxaryayev olublar. Arye Qut yazır: "Nisanov və Zaxaryayev Ümumdünya Yəhudi Konqresinin nümayəndə heyətinə Qırmızı Qəsəbənin tarixi, Azərbaycan və yəhudi xalqlarının dostluğu və qardaşlığı, Azərbaycan rəhbərliyinin və Azərbaycan xalqının yəhudi icmasına hörmətli və səmimi münasibəti barədə ətraflı məlumat veriblər. Azərbaycanın Quba rayonundakı qədim Qırmızı Qəsəbə Azərbaycanın fəxri, İsrail hüdudlarından kənarda dağ yəhudilərinin məskunlaşdığı yeganə məkan sayılır. Azərbaycan yəhudiləri və Azərbaycan müsəlmanları bu regionda əsrlər boyu harmonik və səmimi yaşayıblar. Azərbaycanda müsəlmanlar və yəhudilər bir sıra parametrlərə görə - ortaq tarix, ortaq vətəndaşlıq, dostluq, qarışıq nikahlar, təcrübə, habelə erməni daşnak partiyasının Azərbaycanda yaşayan minlərlə yəhudini və müsəlmanı məhv etdiyi 1918-1919-cu illərin faciəli hadisələri ilə bir-birinə bağlıdır".

İsrailli ekspertin fikrincə, Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi etnik təmizləmə və təcavüz nəticəsində ölkə ərazinin 20 faizinin işğal edilməsinə, bir milyon insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinə baxmayaraq Azərbaycan bu gün də sivilizasiyalararası və konfessiyalararası dialoqun əsl nümunəsidir. Məqalə müəllifi yazır: "Tolerantlıq və multikulturalizm Azərbaycan cəmiyyətinin təməl daşlarıdır. Azərbaycan milli multikulturalizm və tolerantlıq ənənələrinin inkişaf etməsi və möhkəmlənməsi üçün zəruri siyasi və sosial şərait yaratmaqdan ötrü uzlaşdırılmış səy göstərir".

Qut vurğulayır ki, İsrail Dövləti Azərbaycan xalqının və Prezident İlham Əliyevin, həmçinin Azərbaycan rəhbərliyinin yəhudi icmasına səmimi və unikal münasibətinə görə dəfələrlə minnətdarlığını və təşəkkürünü bildirib.

"The Jerusalem Post" qəzetində dərc edilmiş məqalədə Ronald Lauderin keçən il sentyabr ayında Azərbaycana səfəri zamanı dediyi sözlər sitat gətirilir: "Dünyada belə analoqlar yoxdur. Düşünürəm ki, Qırmızı Qəsəbə başqa ölkələrdən ötrü əla nümunədir. Azərbaycan multikulturalizm sahəsində öz uğurları ilə fəxr edə bilər. Mən Ümumdünya Yəhudi Konqresinin prezidenti kimi, Azərbaycan xalqının və Azərbaycan rəhbərliyinin yəhudi icmasına hörmətli və səmimi münasibətini yüksək qiymətləndirirəm və Azərbaycan Prezidenti İlham Əliyevə səmimi təşəkkürümü bildirmək istəyirəm".

Məqalənin müəllifi Arye Qut İsrail-Azərbaycan qarşılıqlı münasibətləri məsələsinə toxunaraq göstərir ki, 2016-cı ilin dekabrında İsrailin Baş nazirinin Azərbaycana səfəri tarixi hadisə oldu. Məqalə müəllifi vurğulayır: "Binyamin Netanyahu 1997-ci ilin avqustunda Bakıda yolüstü səfərdə olub, lakin 2016-cı ilin dekabr səfəri tarixi hadisə idi, çünki bu, İsrail hökumətinin başçısının Cənubi Qafqaz regionuna ilk rəsmi səfəri idi. İsrailin Baş nazirinin və Azərbaycan Prezidentinin Bakıdakı bu görüşü bir daha təsdiq etdi ki, iki ölkə arasında ən yüksək səviyyədə siyasi dialoq var, bu münasibətlərin iqtisadi tərkib hissəsi və ticarət dövriyyəsi daim artmaqdadır. İsrail Azərbaycan neftinin iri idxalatçısına çevrilib, İsraildəki texnoloji şirkətlər rəsmi Bakıya telekommunikasiya, kənd təsərrüfatı, irriqasiya, yüksək texnologiyalar, müdafiə sənayesi və hərbi sənaye sahələrinə aid layihələrin həyata keçirilməsində kömək edirlər".

Qut qeyd edir ki, İsrail 25 il bundan əvvəl Cənubi Qafqazda real seçim edərək Azərbaycana güvəndi. Bu, bütün parametrlər üzrə düzgün strateji seçim idi.

Arye Qut "The Jerusalem Post" qəzetində dərc edilmiş analitik məqaləsində yazır: "Heç də təhlükəsiz olmayan geosiyasi regionda yerləşən iki kiçik dövlətin bu əməkdaşlığının böyük gələcəyi var. Bu isə, əlbəttə, həm İsrailə, həm də Azərbaycana dost münasibət bəsləməyən üçüncü ölkələri narahat edir. Belə ölkələr nəyin bahasına olur-olsun, Azərbaycanla İsrailin qarşılıqlı münasibətlərinə xələl gətirməyə çalışırlar. İsrail müsəlman ölkəsi olan Azərbaycanla dostluq münasibətlərini yüksək qiymətləndirir. Biz müsəlman ölkəsi ilə əməkdaşlığın modeli olan bu münasibətləri qorumalı və inkişaf etdirməliyik ki, hər hansı antiisrail və antiazərbaycan qüvvələr onlara ziyan vura bilməsin".

Müəllif qeyd edir ki, İsrail ilə Azərbaycan arasında qardaşcasına münasibətlərin möhkəm tarixi əsası var. O yazır: "Nümunə kimi "Sadıqaşvili" ləqəbli azərbaycanlı kəşfiyyatçının (Həmzə Cümşüd oğlu Sadıqovun) qəhrəmanlığını göstərə bilərəm. Həmzə Sadıqov Stalinqrad ətrafında sovet hərbi kəşfiyyatının heyətində Hitlerin ən yaxın silahdaşı, xüsusi qəddarlığı ilə fərqlənən və yəhudiləri şəxsən məhv edən general İohann Fon Roddenburqu əsir götürüb. Hitlerin "bioloji bomba"sının atası adlandırılan, insan libaslı bir vəhşi olan Roddenburq həmin silahı məhz yəhudi uşaqları üzərində sınaqdan keçirirdi. Məhz yəhudi uşaqlarını xilas etmiş Həmzə Sadıqovun cəsurluğu və igidliyi sayəsində onlarca yəhudi ailəsi ölümün pəncəsindən qurtulub. Sadıqov özünün bu şücaəti və igidliyi ilə ona minnətdar olan nəsillərin ürəklərində özünə şücaət və ölməzlik abidəsi ucaldıb.

Azərbaycanda belə qəhrəmanlar çox olub, lakin Azərbaycan xalqının bir keyfiyyəti də təvazökarlıqdır, bu ölkədə görülmüş xeyirxah işlər barədə danışmağı xoşlamırlar. Ona görə də faşizmə qarşı mübarizə aparmış və yəhudi ailələrini xilas etmiş qəhrəman Sadıqovun adı dünyada o qədər də məlum deyil, Ermənistanda isə faşist və cəllad generallar Dronun və Njdenin şəxsiyyətinə pərəstiş təbliğ edilir".

İsrailli ekspert vurğulayır ki, müasir Ermənistan ən monomilli ölkədir. Burada şovinizm, millətçilik, faşistlərin və antisemitlərin populyarlaşdırılması Sarkisyan rejiminin indiki dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilib. "The Jerusalem Post" qəzetində dərc edilmiş məqalənin müəllifi yazır: "Vurğulamaq lazımdır ki, bu qaniçən faşistlərə və antisemitlərə pərəstiş bəzi marginal siyasi qruplaşmalar tərəfindən həyata keçirilmir, bu əməllərin arxasında Ermənistan dövləti, müasir Ermənistan Respublikasının cinayətkar rəhbərliyi dayanır. Faşist və antisemit general Qaregin Njdenin heykəlinin açılış mərasimində Ermənistan prezidenti Serj Sarkisyanın və keçmiş müdafiə naziri Seyran Ohanyanın iştirak etməsi faktı bir daha təsdiqləyir ki, onlar həqiqətən özlərini erməni faşist və antisemit Njdenin əsl varisləri hesab edirlər. Bütün bu faktlar sübut edir ki, XX əsrin sonunda Azərbaycanın Xocalı şəhərində qanlı qırğın və soyqırımı aktı törədənlər - Ermənistanın indiki prezidenti Serj Sarkisyan və keçmiş müdafiə naziri Seyran Ohanyan erməni faşist generalları Dronun və Njdenin varisləridir.

Serj Sarkisyanın bu sözlərini xatırlamaq kifayətdir "Xocalı hadisələrinə qədər azərbaycanlılar elə hesab edirdilər ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməzlər. Biz bu stereotipi aradan qaldıra bildik". Bu sözlər sübut edir ki, Serj Sarkisyan və onun Ermənistan hakimiyyətindəki bütün klanı həqiqətən Dronun və Njdenin əsl varisləridir. Xocalıda xüsusi amansızlıqla, ağlasığmaz qəddarlıq və barbarlıqla törədilmiş qanlı soyqırım aktı XX əsrin axırlarında baş vermiş ən dəhşətli faciələrdən biridir. Bu amansız qırğının qəddar səhnələri Azərbaycanın qəlbində sağalmaz yara kimi həmişəlik qalacaq.

İsrail Dövləti Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini yalnız beynəlxalq hüquq normaları və dövlətlərin ərazi bütövlüyü prinsipi çərçivəsində tənzimləməyə çağırır. Belə mürəkkəb geosiyasi şəraitdə Azərbaycanın ədalətli mövqeyinin Yaxın Şərqdə onun mühüm strateji tərəfdaşı olan İsrail dövləti tərəfindən dəstəklənməsi Azərbaycan Respublikası üçün son dərəcə zəruri və əhəmiyyətlidir.

Lakin israilli ekspertin sözlərinə görə, İsrail ilə Azərbaycan arasında, Azərbaycanda yaşayan müsəlmanlar və Azərbaycanda yaşayan yəhudilər arasında münasibətlər təkcə qarşılıqlı maraqlarla izah edilə bilməz. Müasir Azərbaycan-İsrail münasibətləri ümumi dəyərlərə və ortaq tarixə əsaslanır. İnsani əlaqələr, dini baxımdan dözümlülüklə fərqlənən müxtəlif cəmiyyətlərdə yaşamaq qətiyyəti hər iki ölkəni zənginləşdirir.

İsrailli ekspert Arye Qut "The Jerusalem Post" qəzetində dərc edilmiş məqaləsinin sonunda yazır: "Prezident İlham Əliyev dünyəvi dövlətə, multikulturalizmə və tolerantlığa tərəfdar olmasına, Azərbaycanda yaşayan bütün konfessiyalara və xalqlara hörmətlə yanaşmasına görə həm İsrail cəmiyyətinin, həm də dünyanın başqa dövlətlərindəki yəhudi icmasının əksər hissəsinin hörmətini qazanıb".

# Dövlətin yaratdığı geniş imkanlar nəticəsində gənclər cəmiyyətin avanqard qüvvəsinə çevrilib

*MM-in deputatı, YAP-ın Gəncə şəhər təşkilatının sədri Naqif Həmzəyevin yap.org.az-a müsahibəsi*

***- "Azərbaycan Gəncliyi 2017-2021 ci illərdə" Dövlət Proqramı Azərbaycan gəncliyinin inkişafında hansı məqsəd və vəzifələri hədəf müəyyənləşdirmişdir.***

- Hər bir ölkədə dövlətçiliyin, müstəqilliyinin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan verib, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynayıb.

Ölkədə aparılan məqsədyönlü siyasətin nəticəsidir ki, Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsi Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini artırıb.

Ölkə Başçısı cənab İlham Əliyevin sentyabr ayının 15-də imzaladığı "Azərbaycan gəncliyi 2017/2021-ci illərdə" Dövlət Proqramının təsdiq edilməsi haqqında imzaladığı Sərəncam gənclərə göstərilən dövlət qayğısının davamıdır.

Prezident cənab İlham Əliyev gənclərə olan münasibətini belə ifadə edib: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram". Ölkə gəncləri də öz növbəsində bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini toplamalı, Vətənin inkişafı üçün səylə çalışmalı, öz siyasətində onlara arxalanan ölkə Prezidentinin etimadını həmişə doğrultmalıdırlar.

***- Layihə çərçivəsində hansı tədbirlərin həyata keçiriləcəyi nəzərdə tutulub?***

- Azərbaycanda dövlət gənclər siyasəti beynəlxalq müstəvidə bir modeldir. Bunu Azərbaycana gələn xarici qonaqlar xüsusi ilə vurğulayırlar. Dəfələrlə bildiriblər ki, gənclərlə iş sahəsində nəyisə öyrətməyə gəlmişdik, amma burdan nəsə öyrənib qayıdırıq.

"Azərbaycan gəncliyi 2017/2021-ci illərdə" Dövlət Proqramına uyğun olaraq ölkədə gənclər siyasəti daha səmərəli həyata keçiriləcək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakı təmin ediləcək, onların yaradıcı və innovativ potensialının üzə çıxarılması dəstəklənəcək, gənc nəslin sağlamlığının qorunmasına, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqət daha da artırılacaq, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə ediləcək, ölkədə könüllülük hərəkatı sürətləndiriləcək. Bu gün, birinci vitse-prezident Mehriban Əliyevanın təyinatı ilə yeni struktur formalaşdı, Gənclər Siyasəti və İdman məsələləri şöbəsi yaradıldı və müdiri Yusuf Məmmədəliyev təyin olundu. Gördüyünüz kimi, mərkəzi idarəetmə gücləndirilib, bir azərbaycanlı gənc və millət vəkili olaraq, ümid və gözləntilərim çoxdur.

***- Bu ilk və yeganə Dövlət proqramı deyil, 2005-ci il 30 avqust tarixində əsası qoyulan 2005-2009-cu illəri əhatə edən Azərbaycan Gəncliyi dövlət proqramının Azərbaycan gəncliyinə nə kimi faydası oldu?***



- Gənclərin fəaliyyəti üçün dövlətin yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin avanqard qüvvəsinə çevrilib. Məhz bunun nəticəsidir ki, Azərbaycan tarixinin hər bir mərhələsində olduğu kimi, 2005-2009-cu illərdə də gənclər aparıcı sosial-siyasi qüvvəyə çevrilib, müstəqilliyimizin qorunub saxlanması, möhkəmləndirilməsi və dövlətçiliyin inkişaf etdirilməsi prosesində yaxından iştirak edərək tarixi nailiyyətlərə imza atıblar. Dövlətin diqqət və qayğısı sayəsində gənclər təşkilatlarının dövlət gənclər siyasətində iştirakını təmin edən hüquqları genişləndirilib, onların layihə və proqramlarına mütəmadi dəstək verilib.

***- Gəncliyin inkişafında növbəti mərhələnin təmin edilməsi məqsədilə"Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı çərçivəsində, beynəlxalq tədbirlər həyata keçirildi gənclərə kiçik beynəlxalq əlaqələrini qurmaga, cəmiyyətə asan inteqrasiya olunmasına səbəb oldu. Gənclər rəhbər vəzifələrə təyin olundu-onlara etimad göstərildi. Könüllü ordusu formalaşdı. Sayca 3-cü dövlət proqramında gəncləri hansı xoş sürprizlər gözləyir?***

- 2011-2015-ci illəri əhatə edən Dövlət Proqramı Gəncə şəhərində daha fəallıqla həyata keçirilib. Şəhərimiz MDB məkanında ilk olaraq "Avropa Gənclər Paytaxtı - 2016" layihəsinin qalibi olan şəhər kimi tanınıb. Gəncə həm də Avropa İttifaqına daxil olmadan bu titulu əldə edən ölkəmizin ilk şəhəri olaraq dünyaya nümunə olub. Bu möhtəşəm uğur təsadüfi əldə edilməyib. Şəhərimiz 2012-ci ildə ölkəmizin ilk "Gənclər paytaxtı" olub. Gəncə gəncliyi dövlətə, dövlətçiliyə sədaqət sahəsində həqiqi örnək, nümunə olduğunu öz əməli fəaliyyətləri ilə nümayiş etdirib. Ötən il ərzində şəhərimizdə ilk dəfə olaraq yüzlərlə yerli və beynəlxalq miqyaslı layihələr həyata keçirilib. Gəncə gəncləri ilk dəfə ölkəmizdə keçirilən "Avropa Gənclər Festivalı", "Türkdilli ölkələrin Gənclər Festivalı", "Avropa şəhərciyi" beynəlxalq layihəsi, bundan əlavə "Tarixin canlı səhifələri" beynəlxalq gənclər festivalı kimi əhəmiyyətli tədbirlərin iştirakçısı olmaqla bərabər, həm də bu layihələrin təşkilatçısı qismində öz töhfələrini verə biliblər. Bu iştirak yalnız elm, təhsil, idman, mədəniyyət, səhiyyə sahələrini əhatə etmir, həm də müasir dünyada ölkəmizin vizit kartına çevrilən tolerantlıq, multikultural dəyərlərimizin beynəlxalq ictimaiyyətə, çatdırılmasına da imkan verir. Könüllülük, şəhərin bütün ictimai-mədəni işlərində fəallıqla iştirak Gəncə gəncliyinin nümunəvi işinin göstəricidir.

Gənclərin rəhbər vəzifələrə təyin olunmasına gəldikdə isə gənclərin dövlət işində irəli çəkilməsi təkcə mərkəzi dövlət strukturunda reallaşdırılmır. Bu iş paralel olaraq regionlarda da həyata keçirilir.

***- Gənc ailə institutunun möhkəmlənməsi üçün maliyyə bazasının olması önəmli faktorlardandır. Xüsusilə mənzil prioritet problemlərdəndir. Gənclər üçün daha əlverişli şəraitin yaradılması nəzərdə tutulubmu?***

- Azərbaycan gəncliyi qarşısında duran yeni hədəflər açıqlandıqca, dövlətin gənclərə diqqət və qayğısı da ilbəil artır və konkret nəticələrlə müşahidə olunur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planında gənclərin və gənc ailələrin mənzil şəraitinin yaxşılaşdırılması, onların həyat səviyyəsinin yüksəldilməsi qədim Gəncədə də uğurla həyata keçirilir.

Nizami yurdunda gənclərin mənzil probleminin həlli istiqamətində yeni layihələr həyata keçirilməsi diqqət mərkəzindədir.

***- Həyatda müstəqil addımlamaq üçün, işlə təmin olunma əsas şərtlərdəndir. Gənclərin məşğulluğu ilə bağlı hansı tədbirlər planı nəzərdə tutulub?***

- İlbəil, aybaay deyil, günbəgün dəyişən, gözəlləşən Nizami yurdunda gənclərin məşğulluğunun təmini ilə bağlı bir sıra işlər görülür. Şəhərdə geniş vüsət alan adadlıq-quruculuq işləri sayəsində yeni iş yerləri açılır. Tikintisi başa çatmaq üzrə olan "Grand Qafqaz" Ticarət Mərkəzində və Gəncə MALL-da minlərlə gənc işlə təmin ediləcək.

## Sədaqət Vəliyeva: "Prezident İlham Əliyev BMT-də ölkəmizin və xalqımızın mənafeyini qorudu"

"Cənab Prezident İlham Əliyev BMT-nin Baş Assambleyasının 72-ci sessiyasında iştirakı və çıxışı ilə bir daha ölkəmizin və xalqımızın mənafeyini, milli maraqlarını qətiyyətlə qorudu".



Bunu Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva bildirib.

Sədaqət Vəliyeva qeyd edib ki, Prezident İlham Əliyevin BMT-dəki çıxışı regional və qlobal miqyasda xüsusi diqqətçəkən bir sıra məqamlarla yadda qaldı: "Birincisi, Cənab Prezident İlham Əliyev rasional çıxışı, praqmatik tezisləri ilə Ermənistanın kriminal rəhbərini ifşa etdi, düşmən ölkənin prezidentinin sözlərinin sərsəmləmələrdən, böhtandan və şərdən ibarət olduğunu isbatladı. İkincisi, dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ölkəmizin qətiyyətli mövqeyini bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Üçüncüsü, Cənab Prezident münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması üçün ölkəmizin həm siyasi-iqtisadi, həm də hərbi qüdrətinin olduqca böyük olduğunu faktlarla sübut etdi. Dördüncüsü, Prezident İlham Əliyev Ali Baş Komandan kimi həm Ermənistana, həm də onun havadarlarına mesaj verdi ki, Azərbaycan bəzi dairələrin ikili standartlı siyasətinə baxmayaraq, bundan sonra da qətiyyətli mövqeyindən geri çəkilməyəcək, beynəlxalq hüququn verdiyi bütün imkanlardan istifadə edərək dövlətimizi, xalqımızı qoruyacaq və ərazi bütövlüyümüzü təmin edəcək. Beşincisi, Prezident İlham Əliyev müasir, demokratik, inkişaf edən, tərəqqisi ilə dünya ölkələrinə nümunə olan Azərbaycanın yeni formada təqdimatını reallaşdırdı, ölkəmizin yeni uğurlarını və nailiyyətlərini dünya ictimaiyyətinin diqqətinə çatdırdı".

"Cənab Prezident İlham Əliyevin BMT-dəki çıxışı fonunda, orada təmsil olunan bütün dövlətlərin nümayəndələri, bir daha müasir Azərbaycan dövlətinin gücü, qüdrəti və nailiyyətləri ilə tanış oldular" - deyən Sədaqət Vəliyeva əlavə edib ki, sadalanan faktorlar bir daha Prezident İlham Əliyevin ölkəsinin və xalqının milli maraqlarını müdafiə edən qətiyyətli dövlət başçısı olduğunu, onun Azərbaycanda alternativsiz lider olaraq qəbul edildiyini isbatladı.

## Azərbaycanlı alim yeni nəsil vaksin texnologiyası hazırlayıb

Türkiyənin Akdeniz Universitetinin professoru, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müxbir üzvü Tərlan Məmmədovun apardığı tədqiqatların mühüm nəticələrini əks etdirən məqalə nüfuzlu "PLOS ONE" jurnalında çap olunub. AMEA-dan AZƏRTAC-a bildiriblər ki, məqalə rekombinant zülal sintezi ilə bağlı texnologiyanı əhatə edir. Bu texnologiya ilə sintez edilən antraksa (qarayara) qarşı vaksin ABŞ-ın aparıcı şirkətləri tərəfindən istehsal olunan preparatlarla müqayisədə daha yüksək stabilliyə malikdir. Məqalədə ilk dəfə malyariyaya qarşı yeni nəsil vaksin namizədlərin bitkilərdə uğurla sintez olunması və istehsal edilən vaksin antigenlərinin yüksək aktivliyə malik olması göstərilir.

Azərbaycanlı alimin bu texnologiyası müxtəlif rekombinant zülalların, o cümlədən vaksinlərin, terapevtik zülalların, təbii additivlərin və sənaye enzimlərinin sintezi üçün çox böyük əhəmiyyət daşıyır və onun böyük iqtisadi səmərə verəcəyi gözlənilir. Qeyd edək ki, alınan nəticələr beynəlxalq patent şəklində əksini tapıb.

## Moskvada Çingiz Aytmatovun abidəsi ucaldılacaq



Moskvada dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatovun abidəsi qoyulacaq. AZƏRTAC rus mətbuatına istinadla xəbər verir ki, Moskva Şəhər Duması bununla bağlı layihəni təsdiq edib. Abidə yazıçının Moskvanın Danilovsk rayonunda adını daşıyan bağda ucaldılacaq. Qırğızıstan hökuməti abidənin hazırlanması ilə bağlı bütün xərcləri öz üzərinə götürüb. Abidənin yazıçının anadan olmasının 100 illiyi münasibətilə ucaldılması nəzərdə tutulur.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

22 sentyabr 2017-ci il

# Suriya yeni savaşa doğru: vəziyyət daha da mürəkkəbləşir



***Suriyada terrorla müharibə apardıqlarını deyən böyük dövlətlərin Deyr əz-Zor uğrunda gərgin mübarizəyə başladığı haqqında müxtəlif informasiyalar yayılır. Oraya müxtəlif istiqamətlərdən ABŞ-ın başçılıq etdiyi qruplar, Bəşər Əsəd ordusu və İranın dəstəklədiyi qüvvələr irəliləməkdədir. Ekspertlər hesab edirlər ki, razılıq olmadığı təqdirdə, bu güclər arasında savaş başlaya bilər. Çünki onların hər biri neftlə zəngin olan bir əyalətə nəzarəti ələ keçirmək istəyirlər. Hazırda vəziyyət qeyri-müəyyən olaraq qalır. Ekspertlər bundan sonra nələrin baş verə biləcəyini proqnozlaşdırmaqda çətinlik çəkirlər. Onların sırasında meydana daha təhlükəli məqamların çıxa biləcəyindən bəhs edənlər var. Bütövlükdə Deyr əz-Zor ətrafında situasiya mürəkkəb olaraq qalır. Bunun fonunda Astana danışıqlarına da ümid edilir. Orada nəticə əldə olunsa, Suriya yenidən vətəndaş müharibəsi girdabına düşməyə bilər. Ancaq bu, yalnız ehtimaldır. Yaranmış duruma daha geniş aspektdə baxmağa ehtiyac vardır.***

## Neftlə zəngin əyalət: silahlar oraya yönəlir

Belə görünür ki, Suriyanın Deyr əz-Zor əyaləti uğrunda savaş daha da şiddətlənə bilər. Ərazinin ölçüsü baxımından bu, Suriyada böyük əyalət sayılmır. Ancaq orada zəngin neft və qaz yataqları vardır. İndi bu təbii ehtiyatlar uğrunda böyük güclər gərgin savaş aparırlar. Onları üç qrupa bölmək olar.

Birinci qrupa ABŞ-ın dəstəklədiyi silahlı güclər daxildir. Onlar əsasən kürdlər və assurilərdən təşkil olunub. Sıralarında ərəblər də döyüşür. Bu qrupun adı Suriya Demokratik Gücləridir (SDG). Onların sayının 80 mini aşdığı haqqında məlumatlar vardır.

Digər qrupu Rusiyanın dəstəklədiyi Bəşər Əsəd ordusu təşkil edir. Hazırda Suriya ərazisində qanuni sayıla biləcək yeganə gücdür. B.Əsədin mövqeyi getdikcə güclənir, onun əsgərləri isə hərbi qələbələr əldə edirlər. İran da onlara dəstək verir. Lakin maraqlıdır ki, eyni zamanda iranpərəst qüvvələr üçüncü qrupu təşkil edirlər.

Bunlar bir tərəfdən İraq-Suriya sərhədini nəzarətdə saxlayırlar. Əsasən şiə qruplaşmalarıdır. Qısa olaraq "əş-Şaabi" adlanan silahlı qrup İraq tərəfdən Suriya sərhədini nəzarətdə saxlayır. "Hizbullah" isə Suriyada aktiv hərbi əməliyyatlarda iştirakçıdır.

Hazırda Deyr əz-Zorda hərbi vəziyyət belədir ki, amerikayönlü qüvvələr, B.Əsəd ordusu və İranın dəstəklədiyi güclərin hamısı İŞİD-in üstünə düşüblər. Onlar Fərat çayının enerji ilə zəngin sol sahilini tutmağa çalışırlar. İndi SDG, B.Əsəd və "Hizbullah" həmin yerə doğru irəliləyirlər. Hesab olunur ki, İŞİD-in tam darmadağın olacağı şübhə doğurmur. Əsas məsələ savaşdan sonra zəngin enerji yataqlarına kimin nəzarət edəcəyindədir. Bu aspektdə isə kifayət qədər ziddiyyətli bir vəziyyət meydana gəlib.

Məsələ ondan ibarətdir ki, müharibədə iştirak edən hər bir böyük güc öz payını tələb edir. Rusiyaya B.Əsədin 13 milyarddan çox borcu var. Bunu necə ödəyəcək? Təbii ki, neftdən pay vermək B.Əsədə sərfəlidir, Kremli də bu, tam qane edir. Çünki perspektivli gəlir mənbəyinə əl qoyur.

Eyni məntiqlə amerikalılar kürdlərin əli ilə Suriyanın neftlə zəngin yerlərinə nəzarəti həyata keçirmək niyyətindədirlər. Vaşinqton hətta Əmman-Deyr əz-Zor nəqliyyat yolunu çəkməyi planlaşdırır. Bu, ona Aralıq dənizinə çıxmaq imkanı verəcək.

İran da İraq-Suriya coğrafiyasında "şiə zolağı" yaratmağı planlaşdırır. Bunun üçün onun dəstəklədiyi silahlı qüvvələr Fəratın sol sahilinə keçməlidirlər. Orada isə B.Əsəd, ruslar və kürdlər vardır.

Artıq kürd qruplaşmalar B.Əsədin ordusu ilə döyüşməyəcəklərini bəyan ediblər. Bununla belə, onlar hökumət əsgərləri onlara hücum etdiyi halda, savaşacaqlarını bildirirlər. Amerika da onlara kifayət qədər silahsursat və təlimçilər verib. B.Əsəd də mövqeyindən çəkilən kimi görünmür. Rəsmi Dəməşqi daha çox ölkənin bütövlüyü maraqlandırır. Yəni B.Əsəd federasiya modelini qəbul etmir. Üstəlik, bu, etnik mənsubluğa görə baş verməlidirsə, B.Əsəd çox şey itirir. Həmin səbəbdən ekspertlər hesab edirlər ki, B.Əsəd uyğun zamanda separatçı kürdlərə zərbə endirə bilər.

İrana sadiq qüvvələrin də öz mövqeyi vardır. Onlar B.Əsədi dəstəkləyir, lakin kürdlərin Suriyada güclənməsini arzulamırlar. Bu əsasda İranla Rusiya və ABŞ arasında müəyyən fikir ayrılığı meydana gələ bilər. Tehranın güzəştə gedəcəyini demək çətindir.

Rusiya isə qarşısına daha böyük məqsədlər qoyub. Moskva bütövlükdə Suriyada nəzarəti ələ keçirməyi planlaşdırır. Bunun üçün mərkəzi hökumət Moskvaya meylli olmalıdır. Bunun fonunda Kreml Suriyada müttəfiqlərinin maraqları ilə öz maraqlarını bir-birinə uyğunlaşdıra bilər.

## Müharibənin növbəti mərhələsi: daha böyük güclərin toqquşması

Belə çıxır ki, Deyr əz-Zorda faktiki olaraq Bəşər Əsəd ordusu, Suriya Demokratik Gücləri (SDG) və "Hizbullah" qarşı-qarşıya gəliblər. Astanada Rusiya, Türkiyə və İran nümayəndələrinin danışıqlar aparmasına baxmayaraq, döyüş meydanında hər kəs daha çox pay almağa çalışır. Buna görə də ekspertlər İŞİD-in məğlub edilməsindən sonra Suriyada savaşın bitəcəyinə inanmırlar. Sadəcə olaraq müharibə başqa müstəviyə keçə bilər.

Həmin kontekstdə mütəxəssislər meydana yeni radikal qrupların çıxa biləcəyini ehtimal edirlər. Yəni İŞİD-lə müharibə terroru məhv etmir, ortaya yeni şərtlərə uyğun başqa qüvvələri çıxarır. Əgər bu proqnoz özünü doğrultsa, Suriyada müharibənin qarşısını almaq mümkün olmayacaq. Əslində, Qərbdə və İsraildə bir sıra diplomatlar və mütəxəssislər bu barədə bir neçə dəfə xəbərdarlıq ediblər. Onlar daim vurğulayırlar ki, İŞİD ya daha təhlükəli metodlara əl atacaq, ya da ondan xeyli amansız yeni qrup meydana gələcək.

Məsələn, İŞİD dünyanın müxtəlif regionlarına yayılmaqla çoxlu sayda terror aktları həyata keçirə bilər. Bu, faktiki olaraq, beynəlxalq terrora yeni nəfəs verməkdir. Onun nəticəsinin kifayət qədər təhlükəli ola biləcəyini təxmin etmək çətin deyil. Onda bəs Suriyada aparılan müharibədə böyük dövlətlərin məqsədləri nədən ibarətdir? Bu sualın təəssüf ki, birmənalı cavabı yoxdur.

Yayılan informasiyalarda böyük dövlətlər daha çox yeni silahların sınağından, özlərinin geosiyasi maraqlarının təmin edilməsindən və müttəfiqlərinin müdafiə edilməsindən bəhs edirlər. Sanki Suriya torpaqları güclü silah istehsalçılarının yarış meydanıdır. Özü də bu silahlar həm B.Əsədə, həm də ona radikal müxalif mövqedə olan qruplara satılır. Bu aspektdə SDG-nin silahlılarının sayının 100 minə çatması çox düşündürücüdür. Amerika Yaxın Şərqdə yeni cəza ordusu yaradır? Vaşinqton etnik mənsubiyyətə görə regionu parçalamaq siyasətini inkişaf etdirir?

Əgər bu belədirsə, onda Yaxın Şərqdə vəziyyətin yaxın gələcəkdə sabitləşəcəyinə ümid etmək əbəsdir. Əksinə, ortaya yeni və daha təhlükəli məqamların çıxa bilmə ehtimalı daha da yüksəlmiş olur. Buradan ekspertlər daha bir düşündürücü nəticə çıxarırlar. Yəni söhbət Yaxın Şərqdə böyük dövlətlərin daha açıq savaşının başlama ehtimalından gedir. Deyr əz-Zor uğrunda başlayan amansız mübarizə bunun ilk əlamətlərindən biri ola bilər. Çünki indiyə qədər ABŞ-ın başçılıq etdiyi koalisiya qüvvələri ilə Rusiya və İranın qarşıdurmaya gedə bilməsindən səhra komandirləri bəhs etmirdilər. SDG-nin kürd mətbuat katibi bu barədə xəbərdarlıq edir - yuxarıda vurğulamışdıq ki, o, Əsəd onlara hücum etdiyi təqdirdə, cavab verəcəklərindən bəhs edir!

Məsələnin digər tərəfi İraqda baş verənlərə bağlıdır. Orada da Sincar, Mosul, Kərkük, Təlafir məsələləri hələ açıq olaraq qalır. Bu yerlərə kürdlər iddialıdırlar. Rəsmi Bağdad isə ölkənin federallaşmasını, yaxud ayrıca "Kürdüstan" adlı dövlətin yaradılmasını istəmir. Kürd siyasətçilər isə İraqla Suriyanı əhatə edən və Aralıq dənizinə çıxan "kürd dəhlizi" yaratmaqdan bəhs edirlər. Bu məqam özlüyündə strateji əhəmiyyəti olan Deyr əz-Zor faktoruna əlavə geosiyasi status verir. Gözləmək olar ki, yaxın aylarda Suriyada koalisiyalar arasında münasibətlərin aydınlaşdırılmasını ifadə edən proseslər başlansın. Burada ABŞ İran faktorundan vəziyyəti gərginləşdirmək üçün istifadə etməyə cəhd göstərə bilər. Bu prosesə İsrailin də dəstək verəcəyinə şübhə yoxdur. Təbii ki, Rusiya bu qədər xərcdən sonra Suriyadan qətiyyən çəkilmək fikrində deyil. Moskva daha çox mənfəət əldə etmək üçün ciddi cəhdlər göstərir. Hələlik bir qədər kənarda görünən Türkiyə də şübhəsiz, hərəkət edəcək.

Göründüyü kimi, kifayət qədər mürəkkəb vəziyyət yaranmaqdadır. Bu baxımdan Astana müzakirələri vəziyyəti xeyli aydınlaşdıra bilər. Əgər bu proses də sona çatmasa, onda Suriyada vətəndaş müharibəsinin yeni və daha ağrılı mərhələsindən danışmalı olacağıq. Həm də məsələ yalnız Suriya ilə məhdudlaşmaya bilər; Qafqaz və Mərkəzi Asiya Yaxın Şərqdən elə də uzaqda deyil.

**Newtimes.az**

# "Milli Şura"nın mitinqi erməni lobbisinin sifarişi əsasında planlaşdırılıb

***Bütün insani və normal fəaliyyət göstərmək keyfiyyətlərini itirmiş dağıdıcı müxalifətçi ünsürlər mövcud ağır duruma düşmələrinin səbəbini araşdırıb aradan qaldırmaqdansa dağıdıcı fəaliyyətlərini davam etdirirlər.***

Bununla da islaholunmaz tiplər və yaramaz qüvvələr olduqlarını nümayiş etdirirlər. Bu həyasızlığın növbəti nümunəsi "Milli Şura" deyilən qondarma qurumun sentyabrın 23-də mitinq keçirməyə cəhd etmələrini misal göstərmək olar. Diqqətçəkən məqam ondan ibarətdir ki, ADP, "Ümid", Ədalət və bu kimi digər müxalifət partiyaları dağıdıcıyönümlü "Milli Şura"nın indiki məqamda aksiya planlaşdırmasını ermənilərlə eyni maraqları bölüşmələri kimi dəyərləndiriblər.

## "Ədalət" partiyasının aparat rəhbəri Mütəllim Rəhimli:

- Hər bir siyasi partiya, təşkilat və ya qurum aksiya keçirə bilər. Amma aksiyanın keçirilməsi üçün əsas olmalıdır. Digər tərəfdən, "Milli Şura" bu cür mitinqlərin keçirilməsini özünün siyasi mübarizə metoduna çevirib. Müxalifət düşərgəsini təmsil edən dağıdıcı ünsürlər daimi olaraq, aksiyalar keçirirlər. Səbəb hər kəsə bəllidir. İstəyirlər ki, bu yolla özlərini xaricdə olan qüvvələrə reklam etsinlər. Yəni özlərini gözə soxmağa çalışırlar. Bu baxımdan, "Milli Şura" deyilən qurumun sentyabrın 23-də mitinq keçirmək istəyi düzgün deyil. Gözlənilmədən mitinq keçirilməsinə qərar verilməsi hansısa maraqlı dairələrin göstərişi və sifarişi deyil. Sadəcə olaraq, bu sifarişi və göstərişi üzərinə götürmək istəyən qurumun özünü nümayiş etdirmək istəyidir. Amma mitinq baş tutmayacaq. Bu isə onlar üçün növbəti rüsvayçılıq olacaq.



## "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov:

- Hər zaman belə olub. Müxalifətin dağıdıcı qanadı özlərinin qohum-əqrəbaları, dost-tanışlarını bir araya gətirməklə seçkilər ərəfəsi aksiyalar keçirməyə cəhdlər göstərirlər. Onlara sual vermək lazımdır ki, bu günə qədər çoxsaylı aksiyalar keçirməklə nə əldə etmisiniz? Bu aksiyalara insan yığa bilmisinizmi? Əlbəttə ki, yox, yığa bilməyiblər və bundan sonra da yığa bilməyəcəklər. Belə olan halda, yenidən "Milli Şura" deyilən qondarma qurumun sentyabrın 23-də mitinq keçirməyi planlaşdırması növbəti məğlubiyyətini yaşamaqdan başqa bir şey olmayacaq. Bunun real olduğunu onların özləri də çox yaxşı bilirlər. Dərk edirlər ki, bu cür aksiyaların keçirilməsinin heç bir önəmi olmayıb və olmayacaqdır. Çünki müxalifətin xalqımız tərəfindən heç bir dəstəyi yoxdur. Sadəcə olaraq, bilmirlər ki, seçkiöncəsi necə gündəmə gəlsinlər. Sadəcə, mitinq şousu bir müddət gündəmdə qalmağa hesablanan uğursuz addımdan başqa bir şey deyil.



**GÜLYANƏ**

# Payız gəlsə də, yay havası hələ davam edir



Azərbaycanda sentyabrın 22-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata əsasən, Bakıda və Abşeron yarımadasında hava şəraiti əsasən yağmursuz keçəcək. Səhər yarımadanın bəzi yerlərində zəif duman olacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.

Havanın temperaturunun Abşeron yarımadasında gecə 18-22°, gündüz 29-34° isti, Bakıda gecə 20-22°, gündüz 31-33° isti olacağı gözlənilir. Atmosfer təzyiqi 759 mm civə sütunu, nisbi rütubət gecə 75-85, gündüz 35-40 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin günün birinci yarısında bəzi şimal və qərb rayonlarında şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 30-35° isti, dağlarda gecə 11-16°, gündüz 21-26° isti olacağı gözlənilir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Zəif şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 14-19°, gündüz 32-37° isti olacağı gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında gündüz hava əsasən yağmursuz keçəcək. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 11-16°, gündüz 20-25° isti olacağı gözlənilir.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 29-34° isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında gündüz hava əsasən yağmursuz keçəcək. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 14-19°, gündüz 27-32° isti, dağlarda gecə 10-15°, gündüz 22-27° isti olacağı gözlənilir.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 30-35° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava yağmursuz keçəcək. Səhər dağlarda duman olacaq. Zəif şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-20°, gündüz 29-33° isti, dağlarda gecə 13-18°, gündüz 23-28° isti olacağı gözlənilir.

# Hindistanda bir ay ərzində ikinci dəfə jurnalist qətlə yetirilib



Hindistanda naməlum şəxslər yerli telekanallardan birinin jurnalisti Şantanu Bxoumiki qaçıraraq qətlə yetiriblər. AZƏRTAC Interfax informasiya agentliyinə istinadla xəbər verir ki, polis jurnalistin yerli siyasi partiyalardan birinin nümayəndələri tərəfindən bağlanan avtomobil trası barədə süjet hazırlayan zaman qaçırıldığını bildirib. Hadisədən bir qədər sonra 27 yaşlı jurnalistin üzərində çoxsaylı xəsarətlər olan cəsədi aşkarlanıb. Polis təhqiqat çərçivəsində 4 nəfəri həbs edib. Onların hamısı Tripura ştatının siyasi partiyalarından birinin üzvləridir. Sentyabr ayında, həmçinin Hindistanın tanınmış jurnalisti Qauri Lankeş Karnataka ştatının Banqalor şəhərindəki evinin qarşısında güllələnmişdi. Qətldən iki həftə keçməsinə baxmayaraq, təhqiqat çərçivəsində hələ heç kim saxlanılmayıb.

# Meksikada ikinci zəlzələ nəticəsində ölənlərin sayı 246 nəfərə çatıb



Meksika bu ilin sentyabrında yüzlərlə ölü, yaralı və küllü miqdarda dağıntı ilə nəticələnən iki zəlzələ ilə üzləşib. Meksika səfirliyindən AZƏRTAC-a bildiriblər ki, Meksikanın tarixində ən güclü zəlzələ sentyabrın 7-də baş verib və onun gücü Rixter şkalası ilə 8,2 bal təşkil edib. Həmin zəlzələ ölkənin cənubunda yerləşən Çiapas və Oaxaka ştatlarında 97 nəfərin ölümünə və böyük dağıntılara səbəb olub. Sentyabrın 19-da isə ölkədə 7,1 bal gücündə ikinci güclü zəlzələ baş verib. Bu zəlzələ Respublikanın yeddi ştatında hiss edilib. Zəlzələdən ziyan çəkmiş ştatların təqdim etdiyi son rəsmi məlumatlara əsasən, təbii fəlakət nəticəsində 246 insan həlak olub, Mexiko şəhərində 38 bina dağılıb və yeddi ştatda çoxsaylı dağıntılar qeydə alıb. İkinci zəlzələnin episentri Mexiko şəhərindən 120 kilometr məsafəsində yerləşdiyindən ölkə paytaxtında təkanlar güclü şəkildə hiss olunub. Yerin titrəyişi paytaxt sakinləri vahiməyə salıb. Belə ki, təkanlar 1985-ci ilin sentyabrın 19-da baş vermiş və minlərlə insan tələfatına gətirib çıxarmış zəlzələ qurbanlarının xatirəsini anmaq üçün meksikalıların küçələrdə toplanşmasından iki saat sonraya təsadüf edib. Respublika Prezidenti Enrike Penya Nietonun tapşırığı ilə silahlı qüvvələr dağıntılar altında sağ qalanların xilas edilməsində yerli hakimiyyət orqanlarının köməyinə göndərilib. Eyni zamanda, sentyabrın 7-də zəlzələ nəticəsində ziyan çəkmiş Çiapas və Oaxaka əhalisinə yardımın davamlı şəkildə göstərilməsinə dair təlimat verilib.

# Kataloniyada kütləvi aksiyalar keçirilir




Kataloniyanın müstəqilliyinin tərəfdarları xalqı küçələrə çıxaraq İspaniya hökumətinə qarşı etirazlara səsləyiblər. Kataloniyada fəaliyyət göstərən iki ən böyük təşkilat - Kataloniya Milli Assambleyası və "Omnium Cultural" cəmiyyəti bununla əlaqədar vətəndaşlara müraciət yayıblar. Onlar sosial şəbəkələr vasitəsilə insanları Barselonada keçiriləcək mitinqlərdə fəal iştirak etməyə çağırıblar. İnsanlar bu çağırışlara dərhal reaksiya verərək aksiyalara qoşulmağa başlayıblar.

"Omnium Cultural" cəmiyyətinin sədri Jordi Kuşiar İspaniya hökumətini katalonlara qarşı müharibə elan etməkdə ittiham edib. Kütləvi aksiyalar dinc şəraitdə, polislə qarşıdurma hallarına yol verilmədən keçirilir.

# Ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi törədərək hadisə yerindən qaçan sürücü həbs edilib



Sentyabrın 17-də saat 23 radələrində Xırdalan şəhəri ərazisində naməlum sürücü idarə etdiyi "Mersedes Benz" markalı avtomobillə hərəkətdə olarkən yolu keçmək istəyən piyada - 1974-cü il təvəllüdlü Ağayeva Səmayə Sabir qızını vuraraq hərəkət zolağının qarşı tərəfinə çıxıb "Ford" markalı 99-HP-526 dövlət qeydiyyat nişanlı avtomobillə toqquşaraq hadisə yerindən qaçıb. Piyada aldığı bədən xəsarətlərindən hadisə yerində ölüb.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, fakta görə Abşeron Rayon Polis İdarəsinin istintaq şöbəsində Cinayət Məcəlləsinin 263.2-ci (yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) və 264-cü (yol nəqliyyat hadisəsi yerindən qaçma) maddələri ilə cinayət işi başlanıb.

Aparılmış təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri nəticəsində hadisənin 1990-cı il təvəllüdlü, Binəqədi rayon sakini Ruzpeykar Orxan Rüfət oğlu tərəfindən ona məxsus "Mersedes Benz E 240" markalı 90 CP 033 dövlət qeydiyyat nişanlı avtomobillə törədilməsi müəyyən edilib. O, sentyabrın 20-də şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub. İş üzrə təqsirləndirilən şəxs qismində cəlb olunan O.Ruzpeykara Cinayət Məcəlləsinin həmin maddələri ilə ittiham elan edilib, məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib. Hazırda cinayət işi üzrə istintaq tədbirləri davam etdirilir.

SİYASİ RAKURS

# Məhbusların azadlığı kimlərə və niyə sərf etmir?

*Radikalların heç bir sosial sifarişi olmayan aksiyalar keçirib, yenidən diqqəti öz üzərilərinə cəlb etmək planları səmərəsiz qalacaq*

***Bir müddət əvvəl "Turan" informasiya agentliyinin direktoru Mehman Əliyev, AXCP sədrinin köməkçisi Faiq Əmirli və 18 Nardaran məhbusunun azad edilməsindən sonra dağıdıcı təmayüllü müxalifətdə ciddi narahatlıqlar baş qaldırmağa başlayıb.***

Məhz azadolma prosesinin ardınca sözügedən düşərgədə özlərini "ana müxalifət" adlandıran siyasi təşkilatların rəhbərliyi hakimiyyətin bu addımından təlaş keçirərək, arxalandıqları bir sıra Qərb təşkilatlarının əllərindən çıxacağına ehtiyat edirlər. Daha dəqiq desək, erməni lobbisinin dəstəyi ilə Azərbaycan əleyhinə fəaliyyət göstərən xarici təşkilatlar bundan sonra hakimiyyətə qarşı qərəz kampaniyası üçün yeni bəhanələr axtarışına çıxmalı olacaqlar.

### "Siyasi məhbus" məsələsi əldən çıxarsa, onların mühacir biznesi, eləcə də digər çirkin maraqları məhv olacaq

Ümumilikdə, Azərbaycan - Qərb münasibətlərinin normallığı fonunda hakimiyyətin humanizm siyasətini davamlı olaraq yürütməsi faktorundan qorxan "liderlər" belə qənaətə gəliblər ki, 2018-ci ildə baş tutması gözlənilən prezident seçkilərinə qədər və hətta sonra Azərbaycan hakimiyyəti daha güclü demokratik mühit istiqamətində səylərini artıracaq. Bu isə, dağıdıcı müxalifət düşərgəsinin siyasi sonunu reallaşdıracaq əsas amillərdən biridir.

Söz yox ki, AXCP və Müsavat partiyalarının, o cümlədən, həmin partiyalarla yaxınlıq edən siyasiləşmiş QHT-



lərin və hərəkatların maraqlarına cavab verməyən demokratik addımlar onların ictimai-siyasi sabitliyin pozulmasına yönəldilmiş addımlar atmaq istəklərini ortaya qoyur. Bu baxımdan, "Milli Şura"nın AXCP-nin egidası altında, Müsavatın isə ayrılıqda mitinq keçirmək cəhdləri də belə deməyə əsas verir. Yəni radikalların hədəfi azad olunan insanları ictimai rəydən gizlətmək, ya da bu prosesi unutdurmaq və yeni qarşıdurmalar yaratmaqdan ibarətdir. Çünki istər Ə.Kərimlinin, istərsə də A.Hacılının cəhdlərindən, münasibətlərindən aşkar görünür ki, onların əsas qazanc yeri olan "siyasi məhbus" məsələsi əldən çıxarsa, onların mühacir biznesi, eləcə də, digər çirkin maraqları məhv olacaq.

### Qərb təşkilatları da anlamağa başlayıblar ki, Azərbaycanla təzyiq dilində danışmaq, sadəcə, boş vaxt itkisidir

Düzdür, indi onlar əllərindən çıxmış bu məsələyə öz təbirlərincə donlar geyindirməyə çalışırlar. Misal üçün iddia olunur ki, guya Avropa və Qərb təşkilatlarının Azərbaycana təzyiqləri nəticəsində, "siyasi məhbuslar" əfv olunaraq, azadlığa buraxıldılar. Amma fakt budur ki, dustaqların azad edilmələri üçün Azərbaycan hakimiyyətinə heç bir xarici təzyiq olmayıb, tələblər irəli sürülməyib və bu tövsiyə, bilavasitə ölkə rəhbərliyinin verdiyi qərardan doğan reallıqdır.

Belə olan vəziyyətdə ortaya çıxan daha bir gerçəklik Qərbin ənənəvi müxalifətdən üz döndərməsidir. Artıq Qərb təşkilatları da anlamağa başlayıblar ki, Azərbaycanla təzyiq dilində danışmaq, sadəcə, boş vaxt itkisidir. Hətta erməni lobbisinin xərclədiyi məbləğlər də Azərbaycan hakimiyyətinə qarşı heç bir təsir gücünə malik ola bilmir. Bunun isə əsasında xalq-iqtidar birliyi dayanır ki, nə radikal müxalifət, nə də ölkə xaricindəki qərəzli təşkilatlar həmin birliyə, necə deyərlər, bata bilmirlər. Bu zaman həm də belə qənaətə gəlməyə zəmin yaranır ki, istər AXCP-"Milli Şura" cütlüyünün, istərsə də Müsavatın və s. radikal qurumların heç bir sosial sifarişi olmayan aksiyalar keçirib, yenidən diqqəti öz üzərilərinə cəlb etmək planları səmərəsiz qalacaq.

*Rövşən NURƏDDİNOĞLU*

## Müsavat- AXCP qarşıdurması Əli Kərimlini ifşa etdi

Ənənəvi müxalifət düşərgəsində "ana müxalifət" iddiası ilə çıxış edən Müsavat və AXCP arasındakı gərginliklər başa çatmamış, yeni qarşıdurmalar yaranıb. Artıq 2018-ci ildə keçiriləcək prezident seçkilərinə "hazırlıqla" bağlı ortaya qoyulan iddialar partiyalararası gərginliyin bundan sonra daha da kritik hal alacağını təsdiqləyir.

Müsavat başqanı Arif Hacılı AXCP sədri Ə.Kərimlinin onları qarşıdakı prezident seçkilərinə "hazırlıqla" bağlı işlərini utopiya adlandırmasına qarşı "Səlib yürüşü" hazırladığını qeyd edib. Bildirib ki, öz liderinə xəyanət edən Ə.Kərimlini sındırmaq borc olsun: "Ə.Kərimli vaxtilə lideri Əbülfəz Elçibəyə xəyanət etdi və AXCP-ni ələ aldı. Müsavatda isə pis-yaxşı başqan dəyişikliyi oldu və bu seçkilər yolu ilə reallaşdırıldı. Mərhum liderin qisasını almaq niyyətindəyəm".

Bu yerdə AXCP və Müsavat qarşıdurmalarının son qarşıdurma illərinə nəzər salaq: 2003-cü ilin prezident seçkilərərəfəsi qısa müttəfiqlik edən hər iki siyasi təşkilat arasında növbəti qalmaqal yaşandı. "Müxalifətin Koordinasiya Mərkəzi" adlı qurumda İ.Qəmbəri müdafiə edəcəyini bəyan edən Ə.Kərimli son anda AMİP rəhbəri Etibar Məmmədovu dəstəkləmişdi.

**Əli Kərimli Arif Hacılıdan qisas almağa hazırlaşır**

2005-ci ilin parlament seçkilərində boykot taktikasını əsas götürən Ə.Kərimli bununla Müsavata qarşı "öldürücü" zərbə vurmuş oldu. Nəticədə, bir daha sübut olundu ki, ümumiyyətlə, nə AXCP, nə də Müsavat partiyası heç vaxt hər hansı adda olan siyasi qurumda bir araya və yekdil fikrə gələ bilməyəcək.

Beləcə, 2013-cü ilin "Milli Şura" olaylarına qədər hadisələr davam etdi. İndi isə növbəti və daha kəskin savaşın baş qaldırması reallığa çevrilib. Lakin onu da xatırladaq ki, "Milli Şura"dan öncə, artıq fəaliyyətinə xitam verilmiş "İctimai Palata"da da bu kimi halların yaşanması davamlı olub. Müsavatçıların AXCP sədri Ə.Kərimliyə qarşı antipatik hissləri "palata"nın parçalanması və dağılması ilə müşahidə olundu.

**Fiasko tendensiyasının reallaşması**

Göründüyü kimi, yarandığı gündən yalnız dağıdıcı düşərgənin inhisarı uğrunda mübarizə ilə yadda qalan, şəxsi maraqların vasitəçisinə çevrilən fikir ayrılığı artıq tam aydınlığa qovuşduğu üçün keçmiş "müttəfiqlər" bu cür açıq savaşa başlamaq məcburiyyətindədirlər. Çünki hansısa əməkdaşlıq nağılı artıq partiya üzvlərinə belə inandırıcı görünmür.

Beləliklə, yenidən bir-birinə başladılan əks-təbliğat kampaniyası isə növbəti mərhələyə keçid alıb. Bu kimi davamiyyət isə ənənəvi müxalifətin fiasko tendensiyasının reallaşmasına yetərincə təkan verəcək.

*Rəfiqə HÜSEYNOVA*

# Sosial şəbəkə "qəhrəmanları" ifşa olunur

***Bu gün birmənalı mövqe ondan ibarətdir ki, dağıdıcı müxalifətin meydanlardakı uğursuzluqları sosial şəbəkələrdə də davam edir. Yəni məkan dəyişsə də, nəticə dəyişmir. Uğursuzluqları isə göz qabağındadır.***



Müxalifət düşərgəsində təmsil olunan gənclər əsassız iddialar və həqiqətə uyğun olmayan fikirlərlə özlərinin bəsit dünyagörüşünə malik, uğursuz bir kəsim olduqlarını nümayiş etdirirlər. Əgər onların önündə gedən Arif Hacılı, Əli Kərimli, İsa Qəmbər və digərləri siyasi arenada heç bir nailiyyət, uğur əldə etməyib, xalqın inamını qazana bilməyiblərsə, bu uğursuzluqları da tamamilə təəccüb doğurmur.

### Müxalifətin "layk" dilənçiliyi

Sosial dayaqları məhdud olan müxalif siyasi qurumlar bir çox hallarda sosial şəbəkələr vasitəsi ilə, süni şəkildə sosial bazalarını şişirdirlər və böyük göstərməyə çalışırlar. Bu zaman profillərin birləşdirilməsi, başqa adla qeydiyyata alınmış profilin sonradan adının dəyişdirilib tamam başqa profilə çevrilməsi kimi texniki kələklərdən də məharətlə istifadə olunur. Ə.Kərimlinin və onun dəstəsinin "layk" dilənçiliyi, aldadıcı, məcburedici, hisslərin istismar edilməsi ilə insanların səhifələrə cəlb edilməsi kimi metodlarla izləyici sayı, statistik göstərici süni surətdə şişirdilir ki, əslində, bu da heç bir mahiyyət kəsb etmir.

Real təməs virtual siyasi mübarizələrlə əvəzləndiyi üçün cəmi 2-3 status yazdıqları üçün özlərini lider hesab edən dırnaqarası liderciklər, virtual aləmdə, sosial şəbəkələrdə sosial bazalarını şişirdirlər. Siyasət isə virtual yox, real hadisədir, mübarizədir və əgər virtualda tərəfdarları barədə süni, şişirdilmiş statistik göstəricilərlə öyünən lider, tərəfdarını şəbəkədən real siyasi fəaliyyətə adlada bilməyəcəksə, bunun özünü aldatmaqdan başqa bir adı yoxdur. Hətta bu gün müxalifət düşərgəsində yer alan partiyaların əksəriyyətində elə üzvlər var ki, onlar təmsil olunduqları qurumun heç bir tədbirində iştirak etmir və hətta üzvlük haqqını belə ödəmir. Belə doğru - dürüst təşkilatlanmamış müxalifətin sosial şəbəkələrdəki tərəfdarları ilə öyünməsi, heç bir tədbirdə iştirak etməyən üzvlərinə güvənməsi qədər gülüncdür. Digər tərəfdən, AXCP sədri Ə. Kərimli gözəl başa düşür ki, onu ictimaiyyətdə dəstəkləyən yoxdur. Ona görə də, maksimum şəkildə özünə diqqət cəlb etmək və antiAzərbaycan dairələrinin maraq dairəsinə düşmək üçün sosial şəbəkələrdən də kamuflyaj kimi istifadə edir. Xüsusilə də, seçkilər ərəfəsində hökumətə qarşı şər və böhtan atmaqla ictimai fikirdə çaşqınlıq yaratmaq kampaniyasına start verilir. Ə. Kərimliyə xarici direktivlər əsasında statuslar yazmaq, hakimiyyətin fəaliyyətinə kölgə salmaq cəhdlərini ortaya qoymaqla yanaşı, keçirdikləri mitinqlərin uğursuzluğundan özünü sığortalamaq üçün sosial şəbəkə bir vasitə rolunu oynayır. Onun xarici "ideoloqları" belə yaxşı başa düşürlər ki, onların statusları və videoları canlı şəkildə olarsa, onlara ünvanlanacaq suallar ortaya çıxacaq və bu halda istədikləri, Azərbaycan ictimaiyyətini çaşdırmaq planları baş tutmayacaq.

Hər dəfə Ə. Kərimlinin yalanlarından ibarət paylaşımlarına münasibət bildirənlərin şərhləri ya silinir, ya da profilləri bloklanır. Çünki söz azadlığı Ə.Kərimli üçün, sadəcə, bir "silahdır" və şərhlərin silinməsi, yaxud bloklanması, əslində, kimlərəsə "kütləvi etiraz" səhnəsini nümayiş etdirmək məqsədi daşıyır. Lakin yalan və şər-böhtan carçısı, cəmiyyətdə olduğu kimi, sosial şəbəkələrdə də susdurulur və bu isə, o deməkdir ki, onun yalanları ictimai fikirdə ayaq tutub yeriməyəcək.

### Rəsul Quliyev Əli Kərimliyə qarşı yeni ittihamlar irəli sürür

Son vaxtlar Azərbaycan Xalq Cəbhəsi Partiyasının Ə. Kərimli qanadının gəncləri ard-arda istefa verərək, Amerikada mühacirətdə yaşayan sabiq spiker Rəsul Quliyevin lideri olduğu "Gələcək Azərbaycan Partiyası"na qoşulmaları, iki siyasi qurumu üz-üzə qoyub. Sosial şəbəkələrdə ittihamlar, təhqirlər bir-birini əvəz edir və hər biri, öz növbəsində, qarşı tərəfin mövqeyini təkzib edir. Kərimli tərəfdarları istefa verənlərin bəzilərinin partiya üzvü olmadıqlarını, "GAP"-ın qəsdən siyahını genişləndirmək üçün bu cür taktiki gediş etdiyini ifadə edən iddialarına əks düşərgə Ə. Kərimlinin partiyadaşlarını şantaj etməklə və ətrafında saxlamaqda günahlandırmaqla cavab verir.

Özləri yazır, bəyənir, paylaşır və bununla da təsəlli tapırlar. Deyəsən, AXCP sədri Ə. Kərimli və onun sosial şəbəkə "qəhrəmanları" özlüyündə bunu mübarizə hesab edirlər. Müxalifət düşərgəsində "ana müxalifət" iddiasını reallaşdıra biləcəyinə ümid bəsləyən Ə.Kərimli müxtəlif pozuculuq aktları törətməyə cəhdlər göstərməklə xarici ağalarından daha çox bəxşiş alacağını düşünür. Əslində, əsas məqsəd də elə budur, Ə.Kərimli və ətrafında olanları da maraqlandıran demokratik prinsiplər deyil, xaricdən maliyyə yardımları almaqdır. Bunun üçün ictimai mübarizədən virtual aləmə, sosial şəbəkələrə keçən Ə.Kərimli və onun ətrafında olanlar bu məkanda da uğursuzluqları göz qabağındadır. Çünki Azərbaycan ictimaiyyəti ilə yanaşı, beynəlxalq aləmdə də quru boş sözlərə, vədlərə deyil, əməli fəaliyyətə, quruculuğa, dövlətçiliyə daha çox önəm verilir və etibar edilir.

*İnam Hacıyev*

# Heydər Əliyev şəhidlik haqqında

***Ulu Öndər Heydər Əliyev Vətən yolunda şəhid olanları müqəddəs hesab edir, onların ailələrinə qayğı göstərir, özlərinin xatirələrini əbədiləşdirirdi: "Biz şəhid olanların xatirəsini ehtiramla yad edərək, onlar üçün müqəddəs olan ideallar naminə Azərbaycanda sülhə, bütün Qafqazda sülhə, bütün Azərbaycan xalqı üçün layiqli firavan həyata nail olmalıyıq. Biz fəxr edirik ki, Azərbaycan xalqının milli mənliyini qorumaq üçün öz canından keçməyə hazır olan övladları vardır. Azərbaycanın suverenliyi, milli azadlığı, müstəqilliyi, torpaqların müdafiəsi yolunda şəhid olmuş insanlar bizim ən əziz insanlarımızdır. Onların qəhrəmanlıqları, onların Azərbaycan xalqı qarşısındakı böyük xidmətləri heç vaxt unudulmayacaqdır və Azərbaycan xalqının qəlbində onların xatirəsi daim yaşayacaqdır. Vətən yolunda, torpaq uğrunda şəhid olanların ailələri fəxr edə bilərlər ki, onlar müstəqil Azərbaycan üçün belə gözəl və qəhrəman övladlar yetişdiriblər.***

Şəhid ailələrinə daim diqqət hər bir vətəndaşın borcudur, dövlətin borcudur, hökumətin borcudur, mənim borcumdur, sizin borcunuzdur. Mən vətənin müdafiəsi uğrunda döyüşlərdə şikəst, əlil olmuş insanlarla dəfələrlə görüşərkən, o qənaətə gəlmişəm ki, bu insanlar, nəinki qəhrəmandırlar, nəinki Azərbaycan qarşısında böyük xidmətlər ediblər, o cümlədən də, bununla bərabər, onlar bugünkü cəmiyyətimizin çox dəyərli üzvləridirlər və Azərbaycanın bugünkü həyatında, cəmiyyətində böyük rol oynayırlar. Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir və vətən yolunda canlarını qurban vermiş şəhidlərin də ruhu şad olacaqdır".

Ulu Öndər Heydər Əliyev göstərirdi ki, türk öz vətəni, torpağı, bayrağı yolunda hər vaxt şəhid olmağa hazır olublar.

Azərbaycanlı şəhidin qisasının alınması və ruhunun şad olması üçün:

Birincisi, ölkəmizin ərazi bütövlüyü bərpa olunmalıdır;

İkincisi, ölkəmizin istiqlaliyyətini, müstəqilliyi möhkəmlənməlidir;

Üçüncüsü, hüquqi-demokratik, dünyəvi Azərbaycan daha yüksək inkişaf zirvələrini fəth etməlidir.

Ulu Öndər deyirdi: "Mən şəhidlərin ruhu qarşısında, xatirəsi qarşısında and içirəm ki, bizim müstəqilliyimiz yaşayacaq, inkişaf edəcək və əbədi olacaqdır. Vətəndaş birliyi, vətəndaş həmrəyliyi - bu, bizim üçün çox vacibdir. Hər bir insan üçün vətən, torpaq, ölkə, müstəqil dövlət onun mənəviyyatı, həyatı üçün çox yüksək anlayışlardır".

Bu gün Azərbaycan dünyada özünəməxsus layiqli yerini tutubdur. Bu, hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir. Bizim qayğılarımızın içində bir qayğı hamını narahat edir. Bu torpaqlarımızın müdafiəsində verdiyimiz şəhidlərdir. O şəhidlərin xatirəsi heç vaxt Azərbaycanın tarixindən silinməyəcəkdir. Onların xatirəsi Azərbaycan xalqının qəlbində əbədi olaraq yaşayacaqdır. Şəhidlər öz canlarını torpaq, vətən yolunda müstəqil Azərbaycan yolunda qurban ediblər. Onların ailələri xüsusi qayğıya layiqdirlər. Onlara xüsusi qayğı göstərilməlidir və biz bunu edirik.

Ulu Öndər Heydər Əliyev göstərirdi ki, şəhidliklə vətənpərvərlik, vətən sevgisilə fədakarlıq vəhdət təşkil edir: "Şəhid olan insan öz vətənpərvərliyi ilə, öz arzusu ilə, öz yüksək mənəviyyatı ilə torpaqlarımızı, vətənimizi qorumaq üçün döyüşlərə giribdir, şəhid olubdur. Yəni bu, onun özünün mənəvi istəyidir, özünün vətənpərvərlik hissiyyatlarıdır. Amma eyni zamanda, biz bunu yüksək qiymətləndiririk. Baxmayaraq ki, döyüşlərə gedərkən, o bilirdi ki, şəhid də ola bilər, əlil də ola bilər, xəsarət də ala bilər, onun ailəsi başsız da qala bilər. Ancaq Vətəni, torpağı qorumaq və şəhidliyi gözünün önünə alıb vuruşa getmək - bunlar hamısı onun daxili mənəviyyatının bəhrəsidir. Biz bunları qiymətləndirməliyik. Hər bir şəhid millətin mənəvi ucalığıdır. Şəhidlik milləti yüksəldən, milləti millət edən amillərdən biridir. Biz bunu yüksək qiymətləndirərək, şəhid olan insanın xatirəsini qəlbimizdə daim yaşatmalıyıq və eyni zamanda, onun ailəsinə yardımımızı göstərməliyik. Biz şəhidliyi, döyüşlərdə qəhrəmanlıq göstərmiş insanların şücaətini yüksək qiymətləndirərək, özümüzü onların qarşısında borclu hiss edirik və bu borcumuzu da yerinə yetirməliyik. Vətəni qorumaq, milləti qorumaq hər bir vətəndaşın şərəfli borcudur. Əgər vətəndaş bu şərəfli borcu yerinə yetirirsə, demək, o, ən yüksək qiymətə layiq vətəndaşdır. Ancaq bu borcu yerinə yetirərək, yaxud da yarımçıq yerinə yetirərək, sonra müxtəlif yollarla bundan sui-istifadə etmək, təbiidir ki, gördüyü işi və Vətən qarşısında olan xidməti ləkələyir. Ona görə də, mən arzu edirəm ki, bizim həm şəhid ailələri, həm müharibədə xəsarət almış, əlil olmuş insanlar bilsinlər ki, dövlətin və hökumətin qayğısı daim artacaqdır. Bu qayğının artması bizim imkanlarımızın artması ilə bağlıdır. Bizim hər birimizin borcu şəhid ailələrinə, müharibə əlillərinə maksimum diqqət və qayğı göstərməkdir. Onların da borcu bunu qiymətləndirməkdən ibarət olmalıdır".

Ulu Öndər Heydər Əliyev göstərirdi ki, dünyada şəhidsiz vətən, şəhidsiz xalq və şəhidsiz millət yoxdur. Azərbaycan xalqının şəhidləri xalqımızın, hər bir vətəndaşımızın qəlbində əbədi yaşayır və daim yaşayacaqdır. Şəhidlərin xatirəsi bizim üçün həmişə əzizdir. Eyni zamanda, onların şəhidliyi, qəhrəmanlığı hər bir Azərbaycan gənci, hər bir Azərbaycan vətəndaşı, hər bir Azərbaycan əsgəri üçün nümunə olmalıdır. Hər yerdə, hər rayonda, hər şəhərdə, hər bir qəsəbədə birinci məsələ hər bir vətəndaşımızın vətənpərvərlik hissləri ilə yaşamasıdır. Hər bir vətəndaşımız gərək böyük qürur hissi keçirsin ki, Azərbaycan artıq müstəqil dövlətdir, Azərbaycan xalqı azaddır. Azərbaycan xalqı öz dövlətində öz torpağının sahibi olaraq yaşayır və Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir. Vətən yolunda şəhid olan hər bir insan qəlbimizdə, xalqımızın qəlbində yaşayır və yaşamalıdır.

Ulu Öndər Heydər Əliyev göstərirdi ki, şəhidliklə vətənpərvərlik, vətən sevgisilə fədakarlıq vəhdət təşkil edir: "Şəhid olan insan öz vətənpərvərliyi ilə, öz arzusu ilə, öz yüksək mənəviyyatı ilə torpaqlarımızı, vətənimizi qorumaq üçün döyüşlərə giribdir, şəhid olubdur. Yəni bu, onun özünün mənəvi istəyidir, özünün vətənpərvərlik hissiyyatlarıdır. Amma eyni zamanda, biz bunu yüksək qiymətləndiririk. Baxmayaraq ki, döyüşlərə gedərkən, o bilirdi ki, şəhid də ola bilər, əlil də ola bilər, xəsarət də ala bilər, onun ailəsi başsız da qala bilər. Ancaq Vətəni, torpağı qorumaq və şəhidliyi gözünün önünə alıb vuruşa getmək - bunlar hamısı onun daxili mənəviyyatının bəhrəsidir."

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 22 sentyabr

## İspaniyalı fəhlə təkbaşına 20 ilə qəsr tikib



İspaniyalı fəhlə Serafim Villaran təkbaşına çay daşlarından tikdiyi qəsri 20 ilə ərsəyə gətirib. AZƏRTAC novate.ru saytına istinadla bildirir ki, tikinti işlərinə 42 yaşında başlayan Serafimin bu sahədə elə bir təcrübəsi yox idi. Onun bilik mənbəyi yalnız kitablar olub. "Castillo de las Cuevas" adlandırılan qəsr 5 mərtəbəli olmaqla, xarici turistləri də cəlb edir.

## Saç töküimləsi ilə vidalaşmağın asan yolu...



Saç tökülməsi həm kişi, həm də qadınlar üçün eyni dərəcədə ağrılı problemdir. Nazik, parlaqlığını itirmiş saçlar heç kimi gözəl göstərmir, saçların həddindən artıq seyrəkləşməsi isə yaxınlaşan qocalıq əlamətləridir. Saç tökülməsinin qarşını almaq üçün çoxlu xüsusi maska və şampunlar təklif edilir. Sizə bu problemi həll etməyin həm asan, həm də ucuz başa gələn üsulunu izah edirik. Tük soğanağını möhkəmləndirmək üçün şampunun içinə 10 damcı rozmarin yağı ilə 10 damcı limon yağı əlavə edin. Daha sonra saçınızı həmin şampunla yuyun.

Trixiloqlar özləri də uzun illərdir ki, saç tökülməsinə qarşı rozmarin və limon yağından istifadə edirlər. Bu iki yağ baş dərisinin qan dövranını stimullaşdıraraq və saç köklərini qidalandıraraq onları möhkəmləndirir və saç uzanmasını sürətləndirir. Bu iki yağdan başqa, şampuna E vitamini kapsulaları da əlavə etmək olar. Saçları bu şampunla bir neçə dəfə yuduqdan sonra nəticə sizi də heyrətləndirəcək.

## Bıçaqla kəsmək vitaminləri azaldır?



Qidaların bıçaqla kəsilməsi onların tərkibindəki vitaminlərin itirilməsinə və ya azalmasına səbəb ola bilərmi?. Qidaların tərkibindəki vitaminlərin azalması və ya tamamilə itməsinin səbəblərindən biri də qidanın hava ilə olan təmasıdır. Havadakı oksigenlə təmasa girən vitamin molekulları bir növ oksidləşməyə məruz qalaraq təsirsiz hala gəlir. Qidanın bıçaqla kəsilməsi, qabığının soyulması, doğranaraq hissələrə ayrılması hava ilə təmasa girən bir çox səthin yaranmasına səbəb olur. Bunun nəticəsində də vitamin itkisi artır. Həmçinin bu müddətdə keçən zaman da çox önəmlidir. Soyularaq hissələrə ayrılan qida yeyilməzdən əvvəl nə qədər uzun müddət açıqda qalarsa, hava ilə təması da bir o qədər uzun çəkər və nəticədə yenə də vitamin itkisi çox olar.

## Avropa çempionu olan gənc cüdoçularla görüş keçirilib



Sentyabrın 21-də Azərbaycan Cüdo Federasiyasında Sloveniyanın Maribor şəhərində keçirilən gənclər arasında cüdo üzrə Avropa çempionatında böyük uğur qazanan idmançılar və onların məşqçiləri ilə görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti Sadıq Sadıqov gənc cüdoçuları təbrik edərək, onlara uğurlar arzulayıb. O, Azərbaycanın cüdo tarixində ilk dəfə millimizin komanda yarışlarında çempion olmasını xüsusi vurğulayıb. Gənclərdən ibarət yığma komandamızın baş məşqçisi Elçin İsmayılov, Avropa çempionu Hidayət Heydərov onlara göstərilən yüksək diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər. İdmançılarımız oktyabrda Xorvatiyada keçiriləcək dünya çempionatında da uğurlu çıxışlarını davam etdirməyə çalışacaqlarını diqqətə çatdırıblar. Xatırladaq ki, Sloveniyada gənclər arasında cüdo üzrə Avropa çempionatında yığmamız 3 qızıl, 2 gümüş və 2 bürünc qazanıb. Millimiz kişilərin yarışında medalların əyarına görə komanda hesabında birinci yeri tutub. Cüdoçularımız komanda yarışlarında da bütün rəqiblərinə qalib gələrək Avropa çempionu adını qazanıblar.

## "Şaxtyor"un kapitanında dopinq aşkarlanıb



Donetsk "Şaxtyor"unun kapitanı Dario Srnada dopinq aşkarlanıb. Qol.az-ın məlumatına görə, bu barədə Xorvatiya mətbuatı xəbər yayıb. Çempionlar Liqasının qrup mərhələsində "Napoli" ilə oyundan (2:1) sonra dopinq-testdən keçən 35 yaşlı müdafiəçinin nəticəsi müsbət olub. Xorvatiyalı futbolçudan yenidən nümunə götürüləcək. Növbəti dəfə nəticə müsbət çıxsa, Srna uzun müddət futboldan kənarlaşdırıla bilər. Qeyd edək ki, Xorvatiya millisinin sabiq üzvü 2003-cü ildən "Şaxtyor"da çıxış edir.



## "Qadın voleybolçular arasında Avropa çempionatı gərgin idman mübarizəsi şəraitində keçəcək"

Qadın voleybolçular arasında Avropa çempionatında bizi gərgin idman mübarizəsi gözləyir. Güclü komandaların yer aldığı qrupda mübarizə aparacağıq. Çalışacağıq ki, hər üç oyunda qalib gəlib dörddəbir final mərhələsinə yüksələk. Bu sözləri qadınlar arasında voleybol üzrə Almaniya yığma komandasının baş məşqçisi Feliks Kozlovski sentyabrın 21-də AZƏRTAC-a müsahibəsində deyib.

Almaniya millisinin hazırlıq səviyyəsini yüksək qiymətləndirən mütəxəssis bildirib: "Komandamızın heyətinə gənc voleybolçular cəlb edilsələr də, təcrübəli idmançılarımız var. Güclü komandalarla - Azərbaycan, Macarıstan və Polşa millilləri ilə bir qrupda yer almışıq. Lakin buna baxmayaraq, inamla çıxış edib qrupdan çıxmağa çalışacağıq.

## "Qəbələ" sabiq futbolçusunu yenidən heyətinə cəlb edib



"Qəbələ" sabiq futbolçusu Ekiqo Ehiosunu yenidən heyətinə cəlb edib. Bu barədə Qol.az-a klubun meneceri Səbuhi Səfiyarlı məlumat verib. O, komandaya azad agent statusu ilə keçən nigeriyalı hücumçu ilə 6+6 aylıq müqavilə imzalandığını deyib. Qeyd edək ki, 2014/15 mövsümündə "Qəbələ"də çıxış etmiş 27 yaşlı futbolçu 32 oyunda 6 qol vurub. O, "Qəbələ"dən ayrıldıqdan sonra Türkiyənin "Samsunspor" və "Qaziantep BB" klublarında oynayıb.

### Elan

ADİU-nin "İqtisadiyyat" fakültəsinin IV kurs tələbəsi Əhmədzadə Şakir Yaqub oğlunun tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500